# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**"Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu öz işinə başlayıb**


3

SƏS
№ 174 (7342)
25 sentyabr 2025-ci il.
Qiymətı 60 qəpik

## Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır!


2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər

# 44 günə 30 ildə zərrə-zərrə, addım-addım çatdıq...


8

**Seçkiöncəsi MÖVSÜMİ POPULİZM**


7

**Orta Dəhliz və onun yaratdığı yeni imkanlar**


5

**Xəyanətkarın buynuzu olmur ki...**


11

**Ehsan çadırları - başsağlığı, yoxsa qarın doyurmaq yeri?**


7

**Ətin qiyməti niyə bahalaşır?**


10

# Azərbaycan dünya birliyi üçün etibarlı tərəfdaşdır!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda iştirak ediblər

***Sentyabrın 23-də Nyu-Yorkda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbul təşkil olunub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.***







Rəsmi qəbulda çıxış edən Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp dedi: Ermənistan və Azərbaycan. Mən Sizə təşəkkür etmək istəyirəm, dostum. Oradakı münaqişənin iyirmi iki il davam etdiyini dediniz, düzdür, 22 il? Bu 22 il ərzində Siz müharibə şəraitində idiniz.

Prezident İlham Əliyev: Daha da çox.

Prezident Donald Tramp: Bundan da çox?

Prezident İlham Əliyev: 30 ildən artıq. Siz möcüzə yaratdınız, cənab Prezident. Təşəkkür edirəm.

Prezident Donald Tramp: Mən bir neçə dost qazandım. Təşəkkür edirəm. Çox gözəl oldu. Bu gün Yaxın Şərq ölkələrinin liderləri ilə gözəl bir görüş keçirdik. Onlar möhtəşəm insanlardır və mənim dostlarımdır. Biz onları bir araya gətirməli və həmin müharibəyə tez bir zamanda son qoymalıyıq. Bunu tez etmək istəyirik və məncə, biz həqiqətən yaxşı bir plan hazırlamışıq. Məncə, o, tez həyata keçirilə bilər.

Bilmirəm, bunu Sizin planınız qədər tez həyata keçirə biləcəyik ya yox. Bütün bu illər ərzində buna cəsarət lazım idi. Bu, həqiqətən Sizin və yeni dostunuzun sayəsindədir. Həqiqətən yaxşıdır. Necə gedir işlər? Yaxşıdır? Atışma yoxdur? Heç nə yoxdur?

Prezident İlham Əliyev: Xeyr, xeyr. Hər şey tamamilə bitib. Avqustun 8-də buna son qoyuldu.

Prezident Donald Tramp: Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız.

Mən bu zalda olan bəziləriniz ilə görüşmüşəm, bir çoxunuzu yaxşı tanıyıram. Siz möhtəşəm insanlarsınız. Siz ən yüksək səviyyəli liderlərsiniz. Sizin gördüyünüz işlər möhtəşəmdir. Düşünün, ölkələrinizin milyonlarla əhalisi var və siz bu ölkələrə uğurla rəhbərlik edirsiniz, dünya miqyasında liderlik edirsiniz. Məhz buna görə də buradasınız. Sadəcə demək istəyirəm ki, sizinlə bir yerdə olmaq mənim üçün şərəfdir. Sizinlə əl sıxmağı səbirsizliklə gözləyirəm. Birlikdə bu işlərdən zövq alacağıq. Biz dinc dünyada yaşayacağıq.

Birinci xanım Melaniya Tramp: Mən bu gün günorta "Gələcəyi birlikdə qurmaq" adlı möhtəşəm təşəbbüsə ev sahibliyi etdim. Ümid edirəm ki, bütün birinci xanımlar və həyat yoldaşları gələn il birinci rübdə Ağ Evdə mənə qoşulacaqlar və dünyadakı uşaqlar üçün uğur qazanacağıq. Təşəkkür edirəm.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri Vaşinqton Bəyannaməsinə dəstəklə bağlı birgə bəyanat qəbul ediblər

***Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri Vaşinqton Bəyannaməsinə dəstəklə bağlı birgə bəyanat qəbul ediblər. Bəyanatda deyilir: "Biz, Azərbaycandakı dini konfessiyaların rəhbərləri Azərbaycan Prezidenti Zati-aliləri İlham Əliyev cənablarının "Konstitusiya və Suverenlik ili" elan etdiyi 2025-ci ildə - Böyük Qarabağ Zəfərinin 5-ci ildönümü ərəfəsində Azərbaycan xalqına yaşatdığı misilsiz qürur və sevincə görə Azərbaycan din xadimlərinin və dindarlarının dərin minnətdarlığını ifadə etməkdən böyük şərəf duyuruq.***



Müdrik dövlətçilik təfəkkürü və dəmir siyasi iradə ilə Azərbaycanın ərazi bütövlüyünü və əzəli torpaqları üzərində suverenliyini tam bərpa etmiş Zati-aliləri İlham Əliyev cənabları beynəlxalq müstəvidə qələbəmizi bütün dünya ictimaiyyətinə nümayiş etdirdi. 2025-ci il avqustun 8-də ABŞ-nin Vaşinqton şəhərində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan arasında keçirilmiş Zirvə görüşünün nəticələrini tarixi əhəmiyyətli nailiyyət kimi qəbul edir, müzəffər öndərimizin uğurlu dövlətçilik siyasətinin məntiqi nəticəsi olaraq dəyərləndiririk.

Azərbaycan Prezidentinin dünyanın lider ölkəsində yüksək səviyyədə qəbulu zamanı imzalanmış sənədlərin dəyər və mahiyyəti onların tarixi əhəmiyyətini müəyyən edir. Ölkəmizə qarşı uzun illər ərzində qərəz nümunəsi olan 907-ci düzəlişin ABŞ Prezidenti Donald Tramp tərəfindən nümayişkəranə şəkildə ləğv edilməsi Azərbaycanın dövlət rəhbərinə olan ehtiram və etimadın təcəssümü, Prezident cənablarının şəxsində Azərbaycan dövlətinə edilən mühüm dəstək aktı oldu.

Bölgəmizdə yeni bir dövrün başlanğıcını qoyan Birgə Bəyannamə təkcə dövlətlərarası münasibətlərin normallaşmasının deyil, həm də sülhün, sabitliyin və firavanlığın bərqərar olunmasının rəsmi təsdiqidir. ATƏT-in Minsk Qrupu və onunla bağlı strukturların fəaliyyətinə son qoyulması münaqişə səhifəsinin qapandığını və beynəlxalq hüquqa əsaslanan yeni reallıqların qəbul edildiyini göstərir. Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsi arasında maneəsiz bağlantının təmin olunması və Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" layihəsinin reallaşdırılması, heç şübhəsiz, regionun iqtisadi inkişafı və xalqların rifahı üçün yeni imkanlar açır. Cənubi Qafqazda sülhün, sabitliyin və mehriban qonşuluq münasibətlərinin bərpa edilməsi üçün dönüş nöqtəsi olan bu tarixi sənəd münaqişə səhifəsinin qapanmasını, revanşizm meyllərinin istisna olunmasını və sülh yolunu təmin etməklə gələcək nəsillər üçün parlaq imkanlar açır. Beləliklə, Azərbaycanın dövlət başçısı Azərbaycan xalqına dünya miqyaslı daha bir Zəfər bəxş etdi, qlobal siyasi-diplomatik müstəvidə tarixi ədalətin bərpasına, suverenliyimizin ali məqamda təsdiqinə, ölkəmiz və bölgəmiz üçün yeni perspektivlərin açılmasına nail oldu.

Azərbaycandakı dini konfessiyaların rəhbərləri və dindarlar Vaşinqton razılaşmalarını sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi kimi yüksək dəyərləndirir, bu yola öz dəstək və xeyir-dualarını verirlər. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən öndərimiz, dünya müstəvisində ölkəmizə fəxarət yaşadan müzəffər liderimizin sülh və tərəqqi yönündə səy və əməllərinə, Azərbaycan xalqı və dövləti naminə fədakar fəaliyyətinə Ulu Rəbbimizdən rəvac diləyirik. Uca Yaradan xalqımızı, Vətənimizi, dövlətimizi və qalib dövlət rəhbərimizi qorusun! Amin!".

Bəyanat Azərbaycandakı dini konfessiyaların Məşvərət Şurasının sentyabrın 24-də keçirilən iclasında qəbul edilib.

# "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu öz işinə başlayıb








Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu və Azərbaycanın sədrliyi ilə MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının növbəti iclası keçirilir. Forum iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra tədbir iştirakçıları Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.










Mötəbər beynəlxalq tədbirin açılış mərasimində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Forum iştirakçılarına müraciətini səsləndirib, Ümumdünya Statistika Günü ərəfəsində keçirilən Forumun dövlətimizin beynəlxalq imicinin möhkəmlənməsi, statistika sahəsində qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsi, habelə Azərbaycanın sosial-iqtisadi, mədəni və siyasi sahələrdə əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını qeyd edib.

Daha sonra MDB İcraiyyə Komitəsi sədrinin müavini Denis Trefilov, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri Konstantin Laykam, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov, BMT-nin Avropa İqtisadi Komissiyasının Statistika şöbəsinin direktoru Tiina Luige, Dünya Bankının Qlobal Beynəlxalq Müqayisələr Proqramının rəhbəri Marko Olavi Rissanen çıxış edərək Forumun müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gətirilməsi, statistika sahəsində qabaqcıl bilik və təcrübələrin mübadiləsi, yeni hədəflərin müəyyən edilməsi, eləcə də birgə layihələrin təşviqi, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildiriblər.

3 gün davam edəcək Forumda Milli Hesablar Sistemi-2025, valyutaların alıcılıq qabiliyyətinin pariteti əsasında beynəlxalq müqayisələr proqramı, əhali və mənzil fondu siyahıyaalınmasının 2030-cu il mərhələsi, Dayanıqlı İnkişaf Məqsədlərinin monitorinqi, həmçinin sahə və çoxsektorlu layihələrlə bağlı məsələlər müzakirə olunaraq, informasiya texnologiyaları, statistik məlumatların inteqrasiyası, institusional qərarlar, statistikada səriştəliliyin inkişafı ilə əlaqədar layihələrin effektivliyi qiymətləndiriləcəkdir.

Şuranın iclası zamanı isə onun son üç ildəki fəaliyyəti, "MDB statistikasının inkişafı" layihəsinin icra vəziyyəti, perspektivləri və digər məsələlər müzakirə olunub.

## "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Beynəlxalq Statistika Forumunun iştirakçılarına

**Hörmətli Forum iştirakçıları!**

**Sizi Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində keçirilən "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda Beynəlxalq Statistika Forumunun öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı çatdırıram.**

Məmnuniyyətlə vurğulamaq istəyirəm ki, bu mötəbər tədbir milli statistika sistemlərinin inkişafı, qlobal statistik təşəbbüslərə inteqrasiya və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Hesab edirəm ki, Forum çərçivəsində müxtəlif ölkələrin statistika qurumlarının, beynəlxalq təşkilatların, elmi dairələrin nümayəndələrinin bir araya gəlməsi statistika sahəsində qabaqcıl bilik və təcrübələrin bölüşülməsi, eləcə də birgə layihələrin təşviqi üçün əlverişli mühit yaradacaqdır.

Müasir dövrdə statistika cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün öz əhəmiyyətini daha da artıraraq mühüm vasitələrdən birinə çevrilmişdir. Etibarlı statistik məlumatlar dayanıqlı inkişafın təmin olunmasında, əsaslandırılmış qərarların qəbulunda və şəffaf idarəetmənin qurulmasında böyük rol oynayır. Bu səbəbdən, Beynəlxalq Statistika Forumu metodoloji yeniliklərin təqdim edilməsi və çoxtərəfli əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından universal bir platforma kimi çıxış edir.

Bu gün Azərbaycanda milli statistika sistemi ardıcıl şəkildə inkişaf etdirilir, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalı daim diqqət mərkəzində saxlanılır. Eyni zamanda, süni intellekt kimi müasir çağırışlar statistika sahəsində yeni metodologiyaların, alət və yanaşmaların işlənib hazırlanmasını, gələcək hədəflərin düzgün müəyyənləşdirilməsini zəruri edir. Bu hədəflərin reallaşdırılması üçün isə effektiv beynəlxalq əməkdaşlıq və onun imkanlarının düzgün dəyərləndirilməsi vacibdir. Biz rəsmi statistika sahəsində müasir texnologiyalara, süni intellektə və rəqəmsal transformasiyaya əsaslanan islahatlara xüsusi önəm veririk. Ölkəmiz bu istiqamətdə aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edərək qlobal inkişaf gündəliyinə töhfə verməyə səy göstərir.

Bildiyiniz kimi, BMT-nin Statistika Komissiyasının qərarı ilə bu il oktyabrın 20-də "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında Ümumdünya Statistika Günü qeyd ediləcəkdir. Əminəm ki, həmin əlamətdar gün ərəfəsində baş tutan Forum statistika cəmiyyətinin bir araya gələrək gələcəyə yönələn önəmli təşəbbüslər irəli sürəcəyi, qarşılıqlı bilik və təcrübə mübadiləsi aparacağı məhsuldar müzakirələrlə yadda qalacaqdır.

Hər birinizi qarşıdan gələn Ümumdünya Statistika Günü münasibətilə təbrik edir, Forumun işinə uğurlar arzulayıram.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 24 sentyabr 2025-ci il***

# Azərbaycan UN80-də: Görüş, Forum və Dialoq

***BMT Baş Assambleyasının 80-ci yubiley sessiyası öz işinə başlayıb. Sessiyanın sədri Almaniyanın keçmiş xarici işlər naziri Annalena Berbokdur. O, sessiyanı plenar iclas ilə açıq elan edib. Berbok 80-ci sessiyanın əsas hadisələrindən biri kimi qarşıdan gələn BMT baş katibi seçkisini qeyd edib. Ümumdünya təşkilatının hazırkı rəhbəri Antonio Quterreşin səlahiyyətləri 2026-cı ilin sonunda başa çatır. Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün sentyabrın 22-də Amerika Birləşmiş Ştatlarının Nyu York şəhərinə işgüzar səfərə gedib. BMT Baş Assambleyasının yubiley sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. Artıq dünəndən etibarən qurumun Nyu Yorkdakı mənzil qərargahında yüksəksəviyyəli debatlar başlayıb. Dövlətimizin başçısı BMT Baş Assambleyasının 80-ci sessiyasında qalib Lider kimi iştirak edir.***









1992-ci il martın 2-dən BMT üzvü olan Azərbaycan ilk gündən dünyanın diqqətini torpaqlarımızın Ermənistan tərəfindən işğal edilməsinə yönəldib. Azərbaycan-BMT əlaqələrinin inkişafı, xüsusən təşkilatın tribunasından daha səmərəli yararlanmaq Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonrakı dövrə təsadüf edir. Məhz Onun siyasəti sayəsində BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycan həqiqətlərinə yönəldə bilmişik. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyində, 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak edən Ulu Öndər çıxışında qlobalizasiya, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə toxunmuş və Azərbaycanın mövqeyini ortaya qoymuşdu.

Azərbaycan Prezidenti İlham Əliyev xarici siyasətdə beynəlxalq təşkilatlarla, o cümlədən BMT ilə əlaqələrin inkişafına mühüm önəm verir. Prezidentin 2017-ci il sentyabrın 20-də BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış Azərbaycanın Ermənistana siyasi-diplomatik zərbəsi kimi tarixə düşmüşdü. Artıq Qarabağ problemi başa çatıb, Azərbaycan torpaqlarını işğaldan azad edib, ərazi bütövlüyünə nail olub. Beləliklə Azərbaycan BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin yerinə yetirib. Prezident İlham Əliyev isə BMT Baş Assambleyasının 80-ci sessiyasında nüfuzlu dövlət başçısı olmaqla yanaşı, həm də qalib Lider, Müzəffər Ali Baş Komandan kimi iştirak edir. Prezident İlham Əliyev hər zaman BMT Baş Assambleyasının sessiyalarında və bu qurumun digər tədbirlərində xüsusi ehtiramla qarşılanıb. Hazırda dünyanın diqqəti BMT Baş Assambleyasının 80-ci sessiyasına yönəlib. Azərbaycan Prezidenti İlham Əliyev bu mötəbər qlobal siyasi tədbirin ən nüfuzlu qonaqları sırasındadır.

Prezident İlham Əliyev BMT Baş Assambleyasının ümumi müzakirələrində ümumilikdə dörd dəfə çıxış etmişdir. 2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri qismində, 2004, 2010 və 2017-ci illərdə isə Azərbaycan Respublikasının Prezidenti kimi. Azərbaycan 155 ölkənin dəstəyi ilə 2012-2013-cü illər üçün BMT-in Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib, həmin illərdə ölkəmizin BMT TŞ-na üzvlüyü çərçivəsində 2012-ci ilin may ayında dövlət başçımız Təhlükəsizlik Şurasının iclasına sədrlik etmişdir. 2013-cü ildə isə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi çərçivəsində BMT ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) arasında əməkdaşlığın təşviqinə həsr olunmuş yüksək səviyyəli iclas keçirilmişdir. Bu, Təhlükəsizlik Şurasının tarixində İƏT-ə həsr olunmuş ilk iclas olmuşdur.

Bundan əlavə, Prezident İlham Əliyev 2020-ci ildə BMT Baş Assambleyasının 75-ci və 2021-ci ildə 76-cı sessiyasında onlayn formatda çıxış etmişdir. Prezident İlham Əliyev hazırda Nyu-York-da BMT-in Mənzil Qərargahında keçirilən BMT Baş Assambleyasının 80-ci, yubiley sessiyasına qatılır. Qeyd edək ki, Baş katib Antonio Quterreş tərəfindən 2025-ci ilin mart ayında "UN80" Təşəbbüsü irəli sürülüb. Prezident İlham Əliyev dəfələrlə Təhlükəsizlik Şurasının müasir beynəlxalq reallıqlara uyğunlaşdırılmasının vacibliyini bildirib. Onun fikrincə, Şurada yeni daimi üzvlərin təmsil olunması, xüsusilə İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına bir yer ayrılması qlobal ədalətlilik baxımından labüddür. Bu mövqe Azərbaycanın yalnız milli maraqlarını deyil, həm də Qlobal Cənub ölkələrinin maraqlarını müdafiə etdiyini nümayiş etdirir.

## Prezidentin görüşləri

Azərbaycan Prezidenti İlham Əliyev Sentyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə, Portuqaliya Respublikasının Prezidenti Marselo Rebelo de Souza ilə və Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü olub. Dövlətimizin başçısı həmçinin sentyabrın 23-də BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olub. Yunanıstanın Baş naziri Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Vaşinqtonda keçirilmiş tarixi görüş münasibətilə təbriklərini çatdırdı, əldə olunmuş nailiyyətlərin regional sülhün gücləndirilməsi baxımından əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi. Azərbaycanın regionda sülh gündəliyinin təşəbbüskarı olduğunu deyən Prezident İlham Əliyev Vaşinqtonda keçirilmiş görüşün Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması baxımından önəminə toxundu və bu prosesdə ABŞ Prezidenti Donald Trampın mühüm rolunu qeyd etdi. Vaşinqton görüşündə Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz nəqliyyat dəhlizinin yaradılmasına dair əldə olunmuş razılaşmanın regional bağlantılar baxımından mühüm əhəmiyyət daşıdığı vurğulandı. Söhbət zamanı Azərbaycanla Yunanıstan arasında enerji sahəsində uğurlu əməkdaşlıq qeyd edildi, iqtisadiyyat, ticarət və turizm sahələrində əlaqələrin genişləndirilməsinin, Hökumətlərarası Komissiyanın fəaliyyətinin canlandırılmasının vacibliyinə toxunuldu.

Prezident İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb. Avropa Şurasının Baş katibi Ermənistanla Azərbaycan arasında əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb. Prezident İlham Əliyev təbriklərə görə minnətdarlığını bildirib. Söhbət zamanı Vaşinqton görüşündə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılmasına, iki ölkə arasında münasibətlərin normallaşmasına dair sazişin paraflanmasına və Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış Vaşinqton Bəyannaməsinin əhəmiyyətinə toxunulub. Bütün bunların regionda davamlı sülhün təmin olunması baxımından vacibliyi qeyd edilib. Alen Berse Avropa Şurasının regional sülh gündəliyini dəstəklədiyini vurğulayıb. Avropa Şurasının Baş katibi COP29 dövründə Azərbaycana səfərini, həmin vaxt və digər beynəlxalq tədbirlər çərçivəsində dövlətimizin başçısı ilə görüşlərini məmnunluqla xatırlayıb.

Azərbaycan Prezidentinin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olub. Finlandiya Prezidenti Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması və Vaşinqtonda əldə edilmiş tarixi nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı. Aleksandr Stubb Finlandiyanın regionda sülhü daim dəstəklədiyini qeyd edib. Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirib. Dövlətimizin başçısı məhz Finlandiyanın ATƏT-ə sədrliyi dövründə ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması ilə əlaqədar qərarın qəbul edildiyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın sülh dövrünə qədəm qoyduqlarını qeyd edib. Söhbət zamanı sülh gündəliyinin irəli aparılması üçün birgə səylərin vacibliyi vurğulanıb. Görüşdə Azərbaycanla Finlandiya arasında ikitərəfli, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunulduı, Azərbaycan-Avropa İttifaqı əlaqələrinə dair fikir mübadiləsi aparılıb.

***"Səs" Analitik Qrupu***

# Orta Dəhliz və onun yaratdığı yeni imkanlar

**Prezident İlham Əliyev: "Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir"**



"Biz Orta Dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görür, onu infrastrukturun, sənayenin və biznesin inkişafını stimullaşdıran, bölgədə sabitliyə və çiçəklənməyə töhfə verən mühüm amil olaraq qəbul edirik". Bu fikirlər Prezident İlham Əliyevin Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində yer alıb. "İnanıram ki, bugünkü tədbir regional və qlobal inteqrasiyanın dərinləşdirilməsinə xidmət edən Orta Dəhliz və onun yaratdığı yeni imkanlar ətrafında faydalı fikir mübadiləsinin aparılmasına və yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcək", - deyə müraciətdə vurğulanır.

Prezident İlham Əliyevin 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciəti mühüm və məqsədyönlü mesajlarla zəngindir. Orta Dəhlizin çox geniş coğrafiyanı birləşdirən strateji layihə olduğunu bildirən Azərbaycan Prezidenti bu dəhlizin Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yolu olduğunu bildirib: "Azərbaycanın əlverişli coğrafi mövqeyi - iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta Dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir". Orta dəhliz layihəsinin ideyadan, cəlbedici konsepsiyadan real layihəyə çevrilməsində Prezident İlham Əliyevin rolu əvəzsizdir.







### "2030-CU İLƏDƏK ORTA DƏHLİZİN YÜK DAŞIMA QABİLİYYƏTİ 2021-Cİ İL İLƏ MÜQAYİSƏDƏ 3 DƏFƏ ARTACAQ"

Azərbaycan bu gün yeni geosiyasi çağırışların ticari, iqtisadi əlaqələrə yaratdığı risklərin aradan qaldırılmasında başlıca çıxış yollarından biri kimi nəzərdən keçirilən qlobal nəqliyyat şaxələndirilməsində mühüm rol oynayır. Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanın tranzit potensialının gücləndirilməsi sahəsində atılmış addımlar ölkəmiz üçün yeni mərhələdə yeni imkanlar yaradıb. Ölkəmizin təşəbbüskarı və əsas iştirakçısı olduğu transmilli enerji, nəqliyyat və iqtisadi layihələrin müasir kontekstdə və yeni reallıqlar fonunda Prezident İlham Əliyevin strateji uzaqgörənliyinə əsaslanan siyasəti dayanır. "Biz Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırmışıq. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Xəzər yük donanması - bütün bunlar Orta Dəhlizin funksionallığını təmin edən vacib nəqliyyat infrastrukturlarıdır. Orta Dəhlizin Azərbaycan seqmentində infrastrukturun təkmilləşdirilməsi, rəqəmsallaşdırılması, modernləşdirilməsi və ötürücülük qabiliyyətinin genişləndirilməsi prosesi hazırda da davam etməkdədir", - deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Müraciətdə o da qeyd olunur ki, son üç ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artmış, yüklərin keçid müddəti əhəmiyyətli dərəcədə azalmışdır. Aparılmış hesablamalara əsasən 2030-cu ilədək Orta Dəhlizin yük daşıma qabiliyyətinin 2021-ci il ilə müqayisədə 3 dəfə artacağı, yüklərin keçid müddətinin isə 2 dəfə azalacağı gözlənilir".

### "AZƏRBAYCAN VƏ ERMƏNİSTAN ARASINDA İMZALANMIŞ BİRGƏ BƏYANNAMƏ AZƏRBAYCAN RESPUBLİKASININ ƏSAS HİSSƏSİ İLƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASI ARASINDA MANEƏSİZ BAĞLANTINI TƏMİN EDƏCƏK"

Son iki ayda Xəzər regionunda müşahidə olunan inkişaf liqqətiçəkəndir. Bu inkişafa Ermənistan və Azərbaycan arasında çoxdan gözlənilən sülh saziși, Orta Dəhlizin inkişafında irəliləyiş, müxtəlif qlobal donorların cəlb edilməsi və investisiya səviyyəsinin yüksəldilməsi daxildir. ABŞ-ın dəstəyi ilə Ermənistan və Azərbaycan arasında imzalanmış saziş təkcə siyasi sabitlik üçün sıçrayış deyil, həm də iqtisadi əlaqələrin yeni dövrünü təmsil edir. Trampın Beynəlxalq Sülh və Rifah Marşrutunun və ya Zəngəzur dəhlizinin işə düşməsi ilə Cənubi Qafqaz əvvəlkindən daha çox inteqrasiya edəcəkdir. Azərbaycan Prezidenti İlham Əliyevin müraciətində qeyd olunduğu kimi, cari ilin 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti cənab Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını təmin edəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) əsasını qoydu. Dövlətimizin başçısı "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) ilə də bağlı məqama toxunaraq bu marşrutun Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcəyinə inandığını bildirib.. Bu layihə yalnız nəqliyyat əlaqəsi deyil, həm də enerji resurslarının, elektrik enerjisinin ixracı, bərpaolunan enerji və fiber-optik xətlərin ötürülməsi üçün imkanlar açacaq. "İnanıram ki, Orta Dəhlizin növbəti mühüm seqmentinə çevriləcək TRIPP Asiyanı Avropa ilə birləşdirən, beynəlxalq yükdaşımalarının tranzit imkanlarının genişlənməsinə, region ölkələrinin rifahına və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasına xidmət edən vacib nəqliyyat əlaqəsi olacaqdır. TRIPP, eyni zamanda gələcəkdə enerji resurslarının daşınması, elektrik enerjisinin, xüsusilə də bərpaolunan enerjinin ixracı, o cümlədən fiber-optik xətlərin çəkilməsi üçün də geniş imkanlar təqdim edərək regionun beynəlxalq ticarət və rəqəmsal kommunikasiya habına çevrilməsinə təkan verə bilər. Azərbaycan bu marşrutun yaxın zamanlarda reallaşması üçün bütün səylərini səfərbər edib", - fikirləri Prezidentin müraciətində yer alıb.

Marşrutun reallaşması yalnız iqtisadi dividendlər gətirməyəcək, həm də regionda siyasi inteqrasiyanı və regional nəqliyyat mərkəzi imkanlarını gücləndirəcək və möhkəmləndirəcəkdir. Prezident İlham Əliyevin müraciətində əksini tapan istiqamətlər ümumilikdə Azərbaycanın Orta Dəhliz layihəsi ilə bağlı yalnız regional tranzit və logistika şəbəkəsi kimi deyil, regionun siyasi-iqtisadi inteqrasiyası ilə bağlı hədəfləri olduğunu bir daha nümayiş etdirir. Orta Dəhliz üzrə 50 milyon tondan çox yük artımı gözlənilir.

2020-ci ildən başlayaraq Bakıdan Zəngilan və Ermənistan sərhədinə qədər uzanan dəmir yolu layihəsinin icrasına start verilib və 2026-cı ilin ortalarında yekunlaşması nəzərdə tutulur.

### "BİZ ORTA DƏHLİZİ REGİONAL İQTİSADİ ARTIM VƏ İNTEQRASİYANIN GÜCLÜ KATALİZATORU QİSMİNDƏ GÖRÜRÜK"

Bu gün beynəlxalq aləmdə Azərbaycanın Transxəzər Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) heç vaxt olmadığı qədər ehtiyac yaranıb. Çindən gələn və Azərbaycandan keçən yüklər ildən-ilə artır. Eyni zamanda, Orta Dəhliz layihəsinin böyük gələcəyinə güclü inam var, eləcə də Azərbaycanda bu marşrutun inkişafı məqsədilə lazımi infrastruktur işlər görülüb. Azərbaycan Prezidenti İlham Əliyev Orta Dəhlizin inkişafına və modernləşdirilməsinə diqqət və həssaslıqla yanaşır, dəhliz çərçivəsində yerləşən infrastrukturların fəaliyyətinin səmərəliyinin artırılmasına xüsusi önəm verir.

Orta Dəhliz Çindən Avropaya və geriyə yüklərin çatdırılması üçün ən səmərəli və təhlükəsiz marşrutdur. Xatırladaq ki, bu dəhliz 2014-cü ildən fəaliyyət göstərir və Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə, həmçinin Avropa ölkələrinə qədər uzanır. Xatırladaq ki, 2024-cü ildə Orta Dəhliz ilə yükdaşımaların həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. 2025-ci ildə onun 5,2 milyon tona qədər artacağı gözlənilir ki, bunun da 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrdən keçəcək. Marşrutun ötürücülük qabiliyyəti 2027-ci ilə qədər ildə 10 milyon tona çata bilər ki, bu da Azərbaycanın tranzit potensialının genişləndirilməsi və infrastruktura əlavə investisiyaların cəlb edilməsi üçün davamlı zəmin yaradacaq.

Orta Dəhliz artıq əsas beynəlxalq ticarət marşrutlarından birinə çevrilir və "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" bu əməkdaşlıq üçün yeni imkanlar açır. "Biz Orta Dəhlizi regional iqtisadi artım və inteqrasiyanın güclü katalizatoru qismində görür, onu infrastrukturun, sənayenin və biznesin inkişafını stimullaşdıran, bölgədə sabitliyə və çiçəklənməyə töhfə verən mühüm amil olaraq qəbul edirik. İnanıram ki, bugünkü tədbir regional və qlobal inteqrasiyanın dərinləşdirilməsinə xidmət edən Orta Dəhliz və onun yaratdığı yeni imkanlar ətrafında faydalı fikir mübadiləsinin aparılmasına və yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir" - deyə Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***

# “Səfərlər Azərbaycanın beynəlxalq nüfuzunun artırılması baxımından böyük əhəmiyyət daşıyır”

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 22-də BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək məqsədilə Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə rəsmi işgüzar səfəri gerçəkləşdiriblər. Bu səfər Azərbaycanın beynəlxalq arenada fəal mövqeyinin və diplomatik əlaqələrinin daha da gücləndirilməsi baxımından böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Nyu-York şəhərinin ”John F.Kennedy” Beynəlxalq Hava Limanında rəsmi qarşılanma mərasimi keçirilib. Səfər çərçivəsində dövlət başçısı və birinci xanım BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahına gəliblər”. Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, sentyabrın 23-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər: ”Bu sessiya beynəlxalq siyasətdə aktual məsələlərin müzakirəsi və dünya ölkələri arasında əməkdaşlığın gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. BMT-nin Baş katibi Antonio Guterreş dövlətimizin başçısını və birinci xanım Mehriban Əliyevanı mənzil-qərargahda rəsmi olaraq qarşılayıb və salamlayıb. Səfər çərçivəsində Prezident İlham Əliyev Nyu-Yorkda ”Neuberger Berman” şirkətinin sədri və baş icraçı direktoru ilə görüşüb. Bu görüş Azərbaycanın iqtisadi sahədə beynəlxalq əməkdaşlığının genişləndirilməsi və investisiya imkanlarının



artırılması istiqamətində atılan mühüm addımlardan biridir. Prezident İlham Əliyevin Nyu-York səfəri mühüm prioritetə malikdir. Azərbaycan bu gün Cənubi Qafqazın lider dövləti kimi sürətlə inkişaf edən iqtisadiyyata malikdir və prezidentin beynəlxalq görüşlərdə apardığı təbliğat ölkəmizin müsbət imicinin formalaşmasında böyük rol oynayır. Bu səfər Azərbaycan-BMT əlaqələrinin uzun tarixi zəmində baş verir. Prezident İlham Əliyev BMT Baş Qərargahını bir neçə dəfə ziyarət etmişdir. O, 2004-cü ildə BMT Baş Assambleyasının 59-cu sessiyasında, 2010-cu ilin sentyabrında 65-ci sessiyasında və 2017-ci ilin sentyabrında 72-ci sessiyasının açılışında iştirak edib. Ümummilli lider Heydər Əliyev 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak etmək üçün ABŞ-da səfərdə olmuş və Azərbaycanın tarixində ilk dəfə olaraq BMT-nin yüksək tribunasından proqram xarakterli nitq söyləmişdir”.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, bu səfər Azərbaycanın beynəlxalq arenadakı mövqeyinin gücləndirilməsi, ölkəmizin qlobal proseslərə fəal qatılımının təmin edilməsi və digər dövlətlərlə əməkdaşlığın genişləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır: ”BMT kimi beynəlxalq təşkilatların platformasından istifadə edərək Azərbaycan öz mövqeyini dünya ictimaiyyətinə çatdırma imkanı qazanır. Prezident İlham Əliyevin xarici siyasət fəaliyyəti ilə bağlı səfərlərinin, görüşlərinin, qəbullarının, nitqlərinin, çıxışlarının, bəyanatlarının, müsahibələrinin, imzaladığı sənədlərin ümumi sayının 5000-dən çox olması ölkəmizin beynəlxalq əlaqələrinin genişliyini və dərinliyini göstərir. Bu cür səfərlər Azərbaycanın dünya dövlətləri ilə əlaqələrinin möhkəmləndirilməsi, iqtisadi əməkdaşlığın genişləndirilməsi və ölkəmizin beynəlxalq nüfuzunun artırılması baxımından böyük əhəmiyyət daşıyır”.

***Arzu Qurbanlı***

*FAKTLAR AÇIQLANDI*

# “Suvarma texnologiyalarında və əkinə qulluqda ciddi problemlər var”

”Azərbaycanda kənd təsərrüfatı məhsuldarlığının artırılmasının qarşısını alan əsas maneələr kifayət qədərdir. İlk növbədə bu sahədə əsas məsuliyyət daşıyan qurum - Kənd Təsərrüfatı Nazirliyidir. Hazırda bu nazirlik məhsuldarlığın artmasına yalnız mane olmaqla kifayətlənmir, eyni zamanda artırılması üçün heç bir ciddi tədbir də görmür.



Məhsuldarlığın artırılması üçün ən vacib məsələlərdən biri kənd təsərrüfatı məhsullarının beynəlxalq satış kanallarının yaradılmasıdır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı Elçin Rəşidov deyib.

Onun sözlərinə görə, hazırda Azərbaycan fermerləri öz məhsullarını xaricə satmaq üçün kanalları özləri tapırlar: ”Halbuki dünyanın bir çox ölkəsində dövlət fermerlər üçün ixrac və satış kanallarını yaradır, bu istiqamətdə onlara dəstək verir. Azərbaycanda isə vəziyyət fərqlidir. Məsələn, Şəmkir fermerlərinin Rusiya ilə şəxsi əlaqələri var deyə, pomidor və digər məhsulları ora sata bilirlər. Bu prosesdə dövlətin heç bir rolu yoxdur. Halbuki bu fermerlər ciddi risklərlə üzləşirlər. Rusiya bazarında qiymətlər aşağıdır, halbuki ərəb ölkələri, Avropa və digər alternativ bazarlarda qiymət-



lər daha yüksəkdir. Məsələn, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İraq kimi bazarlar daha əlverişlidir. Amma bu istiqamətlərdə satış kanalları mövcud deyil.

Ərəb ölkələrinə ixrac üçün tələblər nisbətən asandır və dövlət tərəfindən təşəbbüs göstərilsə, uğurlu nəticələr əldə etmək mümkündür. Avropa ölkələrinə ixrac üçün tələblər daha çətindir, amma mümkünsüz deyil. Bəzi fermerlər öz gücləri ilə çalışır, amma bu proses sistemli deyil, fraqmentar xarakter daşıyır. Əgər satış təmin olunsa, fermerlər özləri istehsalı təkmilləşdirəcək, məhsulun keyfiyyətini bazar tələblərinə uyğunlaşdıracaq, həm də kəmiyyətini artıracaqlar. Yəni əvvəl satış kanalları qurulmalı, sonra digər mərhələlər formalaşmalıdır.

Kənd təsərrüfatı əslində qida sektorunun əsas xammal bazasıdır. Bizim kənd təsərrüfatı məhsulları da bu sahəyə ya birbaşa qida kimi, ya da emal üçün xammal kimi daxil olur. Yumurtadan müxtəlif məhsullar hazırlanır, süddən pendir, meyvələrdən mürəbbə və turşu istehsal edilir. Əsas məsələ dəyər zəncirinin fraqmentar deyil, bütöv şəkildə formalaşdırılmasıdır. Bu zəncir düzgün qurularsa, fermer məhsulu yalnız ixrac üçün deyil, həm də yerli bazarda fəaliyyət göstərən qida sənayesi müəssisələrinə sata bilər. Bu isə kənd təsərrüfatı ilə qida sənayesi arasında sağlam qarşılıqlı əlaqənin yaranmasına səbəb olar. Dəyər zəncirinin yuxarı hissəsində kənd təsərrüfatını dəstəkləyən xidmətlər - aqronomik xidmətlər formalaşdırılmalıdır. Hazırda bu sahədə ciddi boşluqlar var. Bu xidmətlər özəl əsaslarla inkişaf etdirilməli, fermerlərə real dəstək göstərilməlidir. Bundan başqa, sığorta sistemi də effektiv işləməlidir. Təəssüf ki, mövcud kənd təsərrüfatı sığorta sistemi ya işləmir, ya da əksinə, fermer üçün əlavə əngələ çevrilir. Bu da riskləri artırır və məhsuldarlığın artmasına mane olur.

Digər problemlər də mövcuddur. Məsələn, bəzi məmur monopoliyaları su ehtiyatlarını yalnız öz sahələrinə yönəldir, nəticədə fermerlər zərər görür. Məhsulları batır, ya da əkinçilikdən imtina edirlər. Bəzən isə suya ehtiyacı olmayan bitkilər əkilir və bu, məhsuldarlığı daha da aşağı salır. Torpaq islahatları da tam başa çatmayıb, torpaq sahələri çox kiçikdir və böyük təsərrüfat sahələri azlıq təşkil edir. Azərbaycanda aqronom xidmətləri sahəsində texnologiyalar da zəif inkişaf edib. Fermerlərə lazımi məsləhətlər verilmir, nəticədə bu sahədə gerilik yaranır.

Suvarma texnologiyalarında və əkinə qulluqda da ciddi problemlər var. Gəncə Dövlət Aqrar Universitetinin təhsil səviyyəsi də çox aşağıdır. Təhsil formal xarakter daşıyır, hətta diplomların satılması halları mövcuddur. Universitet hər il minlərlə məzun versə də, real iş bacarığı olan aqronomlar yetişmir. Nəticədə Azərbaycanda aqronom çatışmazlığı var və bu sahədə Türkiyə, İsrail, Hollandiya, hətta ABŞ-dan mütəxəssislər gətirilir. Bu isə ölkə üçün əlavə maliyyə yükü yaradır və daxili potensialın istifadəsinə imkan vermir.

Qida sənayesində müəyyən irəliləyişlər olsa da, bu sahə yeni formalaşır. Saxlama və emal strukturları, soyuducu anbarlar mövcuddur, amma sayı çox azdır. Halbuki belə infrastruktur fermerlər üçün bir növ sığorta rolunu oynayır, məhsulun dəyərini qoruyur. İqlim dəyişikliyi, torpaq eroziyası və deqradasiya kimi məsələlər bütün dünyada mövcuddur, bu baxımdan əsas zəif tərəfimiz deyil. Əsas problem dövlət idarəçiliyindəki səriştəsizlikdir.

Kənd təsərrüfatında çox şey şou xarakteri daşıyır. Məsələn, əkin subsidiyaları şəffaf deyil və əsasən kiminsə maraqlarına uyğun şəkildə verilir. Hansısa rayonda hansısa məhsula subsidiya ayrılır, amma real ehtiyac nəzərə alınmır. Bu isə yalançı əkinçilik və büdcə itkisi yaradır. Hətta subsidiyalar səbəbindən iqtisadi cəhətdən səmərəsiz məhsullar əkilir, sonra isə çıxarılır. Bu isə həm fermerə, həm də dövlət büdcəsinə ziyan vurur.

Əsas səbəb Kənd Təsərrüfatı Nazirliyinin səriştəsizliyi və primitiv yanaşmasıdır. Nazirlik sadə məqamları belə dərk etmir. Nəticədə kənd təsərrüfatı inkişaf etmir, əksinə, tənəzzülə uğrayır. Çıxış yolu isə sadədir: ilk növbədə satış kanalları qurulmalıdır. Daha sonra kənd təsərrüfatı sektorunda inteqrasiya, yeni defragmentasiya həyata keçirilməlidir. Dəyər zəncirləri formalaşdırılmalı, aqronom xidmətləri gücləndirilməli, texnoloji həllər tətbiq olunmalı, məhsulun saxlanması və emalı təmin edilməlidir.

Mütərəqqi suvarma sistemləri tətbiq olunmalı, amma nə əkilməsi məsələsi fermerin ixtiyarına buraxılmalıdır. Bu sistemlərdən istifadə edən fermerlərə subsidiya birbaşa ayrılmalıdır, vasitəçi şirkətlərə yox. Torpaqların kadastr qeydiyyatı və dəqiq xəritələnməsi aparılmalı, subsidiyalar köklü şəkildə dəyişdirilməli və ya tamamilə ləğv edilməlidir. Aqrar təhsil sistemi yenilənməli, özəl sektorun sifarişi ilə qurulmalı, peşə təhsili və qısamüddətli kurslarla aqronom hazırlığı təşkil edilməlidir.

Əgər bu addımlar atılarsa, fermerlər keyfiyyətli məhsul istehsal edəcək, rəqəmsallaşmış və texnoloji kənd təsərrüfatı sisteminə keçid mümkün olacaq. Hazırda isə bu imkanların olmaması Azərbaycanın beynəlxalq rəqabətdə geri qalmasına səbəb olur. Qeyri-neft sektorunda əmək məhsuldarlığı qonşu ölkələrlə müqayisədə bir neçə dəfə aşağıdır və bu, olduqca ciddi problemdir. Əgər mövcud siyasət bu şəkildə davam edərsə, bu tələdən çıxmaq getdikcə daha da çətinləşəcək”.

***Günel Fərzəliyeva***

# Seçkiöncəsi MÖVSÜMİ POPULİZM



***Belə görünür ki, Ermənistanda yenə də "seçki mövsümü" başlayıb və populistlər bu dəfə də "yaxşı şərait", qızıldan dağlar vəd etməyə başlayıblar. Daha dəqiq desək, haylar seçkilərə nə qədər yaxınlaşırlarsa, bir o qədər də mümkünsüz, pafosla dolu vədlər eşitməli olurlar. Bununla belə, ermənilər üçün düşünmək, həqiqəti görmək şübhəsiz ki, bu şəraitdə daha faydalı olardı, nəinki populist vədlərə qulaq asaraq, inanmaq...***

Bəli, vaxt gedir və Ermənistanda parlament seçkilərinə mahiyyətcə bir ildən az vaxt qalır. Qeyri-rəsmi olaraq həm iqtidar, həm də müxalifət qüvvələrinin iştirak etməli olduqları seçki kampaniyasının artıq başlaması da bu mənada başadüşüləndir. İndi hər bir "qüvvə" özünə bərk "əl qatıb" və bütün mümkün vasitələrdən, xüsusən də hayların başbilənləri üçün ənənəvi sayılan populizmdən yenə də istifadəyə üstünlük verilir.

Diqqətə çatdıraqki, iş adamı Samvel Karapetyan "Bizim yol" hərəkatının proqramını soydaşlarına təqdim edib və bu proqramda əsas mesaj məhz yenə də haylar üçün ləyaqətli yaşayışla bağlıdır. Mesajda qeyd olunur ki, belə yaşaya bilməzlər və ermənilər ləyaqətlə yaşamalıdırlar. Doğrudur, ləyaqətlə yaşanılması çox gözəl çağırış və çox gözəl mesajdır, amma burada gülməli də olsa bir məntiqi sual ortaya çıxır ki, görəsən, Karapetyan ermənilərin ləyaqətsiz şəkildə yaşadıqlarını düşünürmü? Hər halda, erməni əsilli "başbilənlərin" özləri belə düşünürlər və belə qənaətdədirlərsə, özləri bilərlər.

Təbii ki, barəsində qeyd olunan iş adamının mesajında iş yerlərinin açılması, gənc ailələrə dəstək, ahıllara tibbi xidmət nəzərdə tutulduğu bildirilir. Həttə iddia da olunur ki, bu, fransızların və isveçlilərin öyrənmək arzusunda olmasına və istəməsinə səbəb olan sosial proqramlar. Məsələ burasındadır ki, proqramda qeyd olunmur ki, bütün bunlar pul tələb edir və həmin pulun hansısa bir şəkildə büdcəyə daxil olması lazımdır. Burada sadəcə, qeyri-müəyyən ifadələr olduğu özünü göstərir. "Artıq bizim daha kiçik miqyasda oxşar proqramların işlənib hazırlanması və həyata keçirilməsi təcrübəmiz var. Hərəkat bütün bu məsələlərin fundamental proqram həlli yollarının tapılması və onların çox yaxın gələcəkdə həyata keçirilməsi üçün müvafiq işlər aparır", deyə bildirilir. Amma nə nəzərdə turulduğu deyəsən heç Karapetyanın özünə də məlum deyil və yenə də Ermənistanın havasından populizm qoxusu gəlir...

Bəli, erməni əsilli sahibkarlar teztez xeyriyyə təşəbbüsləri həyata keçirməkdən dəm vururlar. Hətta ianələrin bir hissəsinin ehtiyacı olanlara ayrılması da bildirilir. Lakin, məsələn, qocalar evində, uşaq bağçasında, hərbi hissədə, bir sözlə, vahid məhdud sosial qrup daxilində olanlar üçün nəyinsə ayrıldığı, onların təminatı hələ də sual olaraq qalır. Reallıq bundan ibarətdir ki, ehtiyacı olanların "ordusu" həddindən artıq böyükdür və "təşəbbüslər" elə ancaq təşəbbüs olaraq da bir növ, kağız üzərində qalır. Elə hər zamankı populist çıxışlarda olduğu kimi...

Maraqlıdır, bəs Ermənistan büdcəsi necə doldurulacaq? Sosial layihələrin maliyyələşdirilməsi konkret olaraq haradan olacaq? Vergiləri artırmaqla, yoxsa göydən düşəcək? İqtisadiyyatı necə bərpa edəcəklər? Cavab varmı? Əlbəttə ki, yoxdur. Amma bununla belə, yenə də boşboş danışılır, heç bir əsası olmayan iddialar səslənirilir. Məsələn, "PoNaşemu" hərəkatı guya ki, "proqramlı fundamental həllər" ortaya qoyub, amma bunun da bir anlamı və mənası olmayıb. Bəli, həmin hərəkatın koordinatoru Narek Karapetyan onun prioritetlərindən birinin çoxuşaqlı ailələrə necə dəstək olacağı barədə danışmağa başlayıb. "Bizim təklifimiz ondan ibarətdir ki, üçüncü uşaq dünyaya gələndən sonra çoxuşaqlı ailələrə güzəştli şərtlərlə mənzil almaq imkanı verilsin və dövlət onlara dəstək versin", deyə Narek pafosla çox uca səsdən danışıb. Amma yenə də boş-boşuna danışıb. Sual olunur ki, yenə də bu "yaxşı şəraiti" kim yaradacaq axı? "Yaxşı şərait" axtaranların pulu Ermənistan büdcəsindən, deməli, vergi ödəyicilərinin cibindən çıxarılacaq, yoxsa yenə də "göydən düşəcəyinə" ümid edirlər? Hələ də uşaq kimi nağıllara inanırlar, yoxsa bunların sehrli çubuqları var və dünyanın da xəbəri yoxdur? İndi erməni cəmiyyəti öz baş nazirinə lağ edir və belə bir ifadə də var ki, guya Paşinyanın göstərişi ilə artıq hansısa fermada göyərçin yetişdirirlər və məhz noyabrın 10-da, 44 günlük müharibənin bitməsinin beş illiyi günündə Nikol onları qəfəsdən təntənəli şəkildə azad edəcək və bildirəcək ki, budur, müharibə bitdi, sülh gəldi! Onu ələ salan hayların dəyirmanına su tökməyə çalışan başqa biri, daha dəqiq desək, "Ermənistan" fraksiyasının rəhbəri, Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan da öz növbəsində populizmə əl atıb. "Ermənistanın yeni hakimiyyəti ilk növbədə real milli təminatlar yaratmalı və ordunun daxili sabitliyini bərpa etməlidir", deyə keçmiş müdafiə naziri bir "məsləhət" də görüb. O, hətta Azərbaycanla sülh sazişinin şərtlərini "yenidən müzakirə" edəcəyinə belə söz verib. Məsələ burasındadır ki, öz ölkəsinin hakimiyyətini tənqid edən Ohanyan Ermənistanın mövqelərini guya gücləndirmək niyyətini əsaslandıra bilmir və bunun üçün, buna nail olmaq üçün onun heç bir "resepti" də yoxdur. Güclü iqtisadiyyat qurmaqdan və əhalinin sayını artırmaqdan dəm vuran bu adam nə ilə, hansı yolla buna nail olmağın mümkünlüyünü nə bilmir, nə də sual olaraq da olsa dilinə belə gətimir. Deməli, ancaq pafosla çıxış edir və bununla da eyni populist mevqedə olduğu açıq şəkildə görünür.

"Ayakve" hərəkatı isə, görünür, erməni əhalisinin xeyli qocaldığını nəzərə alaraq, təqaüdçülərdən "dəstək" almaq qərarına gəlib və məhz buna görə də elə həmin yaşlı təbəqə üzərində manipulyasiya etmək istəyinə düşüb. Yəni, "Ayakve" də öz növbəsində məhz qacaları, təqaüdçüləri nəzərə alaraq, populizmdən istifadə edir. Onlar Ermənistanda pensiyaların 50% artırılması tələbi ilə imza toplamağa başlamaq qərarına gəliblər. Hərəkatın lideri Çalabyan hətta qeyd edib ki, hakimiyyət bundan imtina edərsə, onun komandası 2026-cı il parlament seçkilərində bu gündəmi irəli aparacaq və yaxın iki il ərzində vədinə əməl edəcək. Həqiqətən də görünən odur ki, seçkilər yaxınlaşdıqca, mümkün olmayan vədlər, "gurultulu" və pafoslu çıxışlar, rasional həll yolları təklif etmədən verilən sözlər ancaq populizm kimi təzahür edir. Bu populizm də öz növbəsində, çox ağır sınaqlar vəd edir. Məsələn, bülletenlərin süni müdaxilələrlə doldurulması, təxribatlar, saxtakarlıqlar, böhtanlar, ittihamedici iddialar, ittifaqların parçalanması və partiyaların qarşılıqlı şəkildə bir-birilərini qınamaları, davalar, çəkişmələr mütləq şəkildə gözlənilləndir. Bütün bunların baş verəcəyini hər ermənilər özləri də indidən bilirlər. Bilirlər ki, çox "çətin" olacaq. Xüsusən də Ermənistanın indiki vəziyyətini nəzərə alan haylar bilirlər ki, eşitdikləri populizmdən başqa bir şey deyil. Bununla belə, haylar əsasən onu bilmədidirlər ki, hər dəfə seçkiöncəsi bu populizm ölkələrində "dəbdə" olur və elə bütün "qüvvələr" də məhz seçki öncəsi həmin populizmə əl atırlar. Bilməlidirlər ki, bu, yəni seçkiöncəsi təzahür edən populizm artıq Ermənistanda bir ənənə halını alıb. Yəni, bir növ, həmin o barəsində qeyd olunan populizm mövsümi xarakter daşıyır. Hər dəfə "seçki mövsümündə" populizm yeganə "vasitə" kimi istifadə olunur və görünən odur ki, "nə isə əldə etmək üçün" Ermənistanda bundan başqa çarə bilən yoxdur və ancaq hər "mövsümdə" hayların başbilənləri bu yola baş vururlar. Ona görə də ümid edirik ki, buna, bu vəziyyətə, bu hala elə seçkiöncəsi mövsümi populizm deməkdə haqlıyıq...

***İnam Hacıyev***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Ehsan çadırları - başsağlığı, yoxsa qarın doyurmaq yeri?

***Artıq 25 ili keçib ki, mətbuatdayam və acı da olsa etiraf ediləsi bir fakt var ki, bu 25 ildə daima İslam dini ilə əlaqəsi olmayan yas çadırlarındakı ehsan israfçılığı, bahalı məzar daşlarının hər gün artması, din pərdəsi altında insanları aldadan işbazlar barədə məlumatlar bir gün də olsun media səhifələrindən düşmək bilmir. Dini dəyərlərlə heç bir əlaqəsi olmayan dəbdəbəli ehsan süfrələri daima müzakirə mövzusu olub. Azərbaycan cəmiyyəti yas yerlərində qarın doyurmaq funksiyası daşıyan bu zərərli vərdişdən on illiklərdir ki, qurtula bilmir.***

Məhz indi-indi artıq insanlar ayılıblar və dəbdəbəli ehsanların cənnətə aparmadıqlarını, bunun nə ölüyə, nə də dini dəyərlərə heç bir faydasının olmadığını anlamağa başlayıblar. Artıq bir sıra bölgələrimizdə yas yerlərində yeyib-içmək adətlərinin yığışdırılması gözəl hadisədir. Lakin hələ də mövhumat düşüncəli "dindarlar" ehsan biznesinin yığışdırılamasına qarşı çıxırlar.

Ümumiyyətlə, "ehsan" sözünün mənasına və yaranma zərurətinə nəzər salsaq görərik ki, əslində, EHSAN böyük bir mədəniyyətdir. Ehsan faydalı iş görmək və onu gözəl şəkildə yerinə yetirməkdir. Bir xoş təbəssümün, bir doğru yolu məsləhət görən sözün özü də ehsandır. Ehsanın çox böyük mənaları var. Bir stəkan su da ehsandır, gözəl əməl sahibi olmaq da ehsandır, gündəlik həyatda birinə sidq ürəkdən əl tutub yardım etmək də ehsandır. Yəni savaba yazılan gözəl əməllərdir.

Bəs bizlərdə ehsan necə anlamda başa düşülür? - banandan tutmuş bahalı meyvə şirələrinə qədər dəhşətli "səxavət"! Xüsusən də, Azərbaycanda yas mərasimlərində Ehsan adı ilə açılan yas süfrələrində, bircə "quş südü" çatışmır: cürbəcür yeməklər, şirniyyatlar, meyvələr, içkilər. Sanki bura yas məclisi deyil, toy və ya ərzaq məhsulları sərgisidir. Guya ki, ölü sahibi bununla mərhumu çox istədiyini və onun ruhunu şad etdiyini göstərir. Ancaq eləcə yas çadırına yaxınlaşanda hiss edirsən ki, bütün bunlar ölüyə görə deyil, elə yas sahibinin özünün reklamına görə edilir. Qoy desinlər ki, filankəs atasının-anasının yasında bir süfrə açdı ki, gəl görəsən...İşin ən paradoksal tərəfi də odur ki, bütün bunları din adına edirlər. Doğrudanmı bütün bunların dinə, şəriətə dəxli var?

Dini ekspertlərin də dəfələrlə mətbuatda qeyd etdikləri kimi, bu israfçılıq həngaməsinin müsəlman dini ilə heç bir əlaqəsi yoxdur. Vəfat edən müsəlmanı son mənzilə yola salmaq üçün 4 əməl vacibdir. Bunlar qüsl, kəfən, cənazə namazı və dəfndir. Ölü sahibinin mərhumun ruhuna ehsan vermək haqqı var. Ancaq ehsan kasıblara verilməli və israfçılıq həddini aşmamalıdır. Gəlin görək özünü yas çadırına dürtüşdürüb qarnını doyuzdurmaq üçün növbəyə duranların neçəsi hüzür sahibinin dərdinə həmrəy olmaq üçün ora gəlir? Tam əksəriyyət qarın doyurmaq üçün "təşrif buyurur".

İllərdir Azərbaycan cəmiyyətində ölüsü düşən ailələr bir ictimai təzyiq altındadırlar. Kim ölüsü üçün gen-bol ehsan verməsə, ölüsünə bahalı məzar daşı hazırlamasa stereotip adətlər üzündən qınaq obyekti olur. Ölü yiyəsi də o üzdən, imkanı olmadığı halda kreditə, borca düşüb həm dəbdəbəli ehsan verir, həm də bahalı məzar daşı hazırlatdırır. Niyə? - Bu iyrənc, oturuşmuş zərərli ictimai baxış üzündən.

Yaxşı xatırlayıram, bir neçə il öncə Dini Komitənin təşəbbüsü ilə israfçı ehsan süfrələrinin yığışdırılması barədə bir kampaniya başlamışdı. Bir çoxları bu qəlibləşmiş stereotipin nəhayət ki, başa çatacağına ümidli olsalar da, sonda bu gözlənti baş vermədi. Məscidlərdən, pirlərdən, ocaqlardan fitrə pulu toplayan dini mafiya, bu işə elə əks təpki göstərmişdi ki, bu ideyanı gündəmə gətirənlər qorxudan bir də ağızlarını açıb ehsan israfçılığı barədə danışmadılar. Və bu gün də israfçı ehsan süfrələri, ölü yiyəsi ilə dərd həmrəyliyi əvəzinə qarın doyurmaq yeri sayılan yas çadırları aktual sosial mövzu olaraq qalır. Nə özünü dindar adlandıranlar öz qazanclarının kəsilməsindən qorxub, yas yerlərindəki israfçılığın aradan qaldırılması, pirlərdəki nəzir-niyaz seyflərinin Allahla, dinlə heç bir bağlantısının olmadığı barədə danışmırlar, nə də cəmiyyət olaraq nəhayət ki, əlimizə kitab alıb həqiqi din necə olur onu öyrənmirik. Bu yaxınlarda Şabranda hüzür məclislərindən birində bir molla gör nə deyir mənə. Deyir ehsan süfrəsi yığışdırılandan bəri daha başsağlığı üçün gələnlərin sayı da azalıb...

# 44 günə 30 ildə zərrə-zərrə, addım-addım çatdıq...

**44 günə qədərki 30 ildə nə azad idik, nə müstəqil. Lakin azad ruhlu idik, müstəqil olmaq ən ümdə arzumuz idi. Çünki azadlığı çox arzulayıb, ancaq cəmi 23 ay dadmışdıq. 1918-ci ildə bu müstəqilliyin əlimizdən alınması üçün başımıza olmazın oyunları gətirilsə də, lakin qanımızda coşan azadlıq eşqi nə 18-də, nə də 90-da sönmək bilmirdi. Odur ki, 70 illik sovet quruluşunun təməli laxlamağa başlayanda, artıq biz azad olmaq, müstəqil respublika qurmaq üçün ayağa qalmış, Azadlıq meydanına axışmış, gecəli-gündüzlü müstəqillik uğrunda mübarizəyə başlamışdıq.**

Lakin bu mübariz qanadımızı qırıb 1918-1920-ci illərdəki kimi yanımıza salmaq xülyasında olanlar yenə var idi. Yenidən sovet maşınının sürətini artırmaq, bu quruluşu bərpa etmək istəyənlər Azərbaycandakı bu mücadiləni boğmaq, insanların müstəqillik arzuları üzərində sovet quruluşunun dağınıqlığını bir yerə yığmaq, onu əbədiləşdirmək istəyirdi.

Elə 1990-cı ilin 19 yanvarından 20-nə keçən gecə Bakıya sovet qoşunlarının yeridilməsi, mübarizə meydanındaca günahsız insanların qanına qəltan edilməsi, onlara qarşı amansız qətliam törədilməsi ona xidmət edirdi. Lakin xalq azadlıq meydanından çəkilmədi. "Öldü var, döndü yoxdur",- deyərək mübarizəsini sonadək davam etdirdi. Və bu qətliamı törədənlərə necə mübariz xalq olduğunu sübut etdirdi.

Bəs qarşıda bizi nələr gözləyirdi?.. Bütün bunlardan xəbərsizdik. Elə həmin gündən üzərimizə qoşun göndərənlərin məkrli planları bir-birinin ardınca həyata keçirilməyə başlandı. Bu gündən düz 35 il əvvələ saldığımız nəzər keşməkeşli yollarla haradan haraya gəlib çıxan bir xalqın tarixinin qəhrəmanlıq səhifələrini vərəqləyir, bizi aradan bir qərinəyədək ötən dövrə yenidən aparır...







## Müstəqilliyi, azadlığı əlimizdən ala bilmədilər

90-cı illəri xatırlayanlar bunu çox yaxşı bilirlər ki, biz müstəqilliyi həqiqətən də damla-damla, qətrə-qətrə bərpa edə bildik. Bu müstəqilliyin də taleyi 1918-ci ildəkinin eynisi idi. Yenə hər kəs bir tərəfdən onun bərpa olunmasına qarşı çıxır, əsrlərin arzusu olan azadlıq istəyini xalqımızın əlindən almaq üçün bütün yollardan istifadə edirdilər. O zaman Azərbaycanda hakimiyyətdə olanlar da təəssüf ki, bu cür qüvvələrə havadar çıxır, vəzifələrini itirməmək naminə qara qüvvələrin istəklərinə boyun əyirdilər. Belə çətin bir dövrdə Ümummilli Liderimiz Heydər Əliyev 20 Yanvar faciəsinə etiraz edib Moskvadan Vətənə qayıtmasaydı, xalqın təkidi ilə hakimiyyətə gəlməsəydi, müstəqilliyimiz odövrkü hadisələr girdabında qurban gedəcəkdi. Lakin Ulu Öndər həmin hadisələrin axarını dəyişdi. Belə ki, ilkin olaraq səriştəsiz vəzifəli şəxslər tutduqları vəzifələrdən azad edildi, ölkədaxili ixtişaşlara son qoyuldu, sabitlik bərqərar



olundu. Daha sonra isə müstəqilliyin özülü möhkəmləndirilməyə başlandı. Ulu Öndər Azərbaycanı dünya miqyasına çıxardı, tanıtdı.

Lakin böyük Heydər Əliyev hakimiyyətə gələnədək artıq həmin ünsürlər Azərbaycanın ərazi bütövlüyünə xəyanət etmiş, torpaqlarımızın bir qismini düşmənə satmışdı. Düşmən isə həmin ərazilərin sərhədlərində mövqelərini elə gücləndirmişdi ki, artıq həmin torpaqları yenicə müstəqilliyini bərpa etmiş ölkənin xilas etməsi mümkün olmayacaqdı. 90-cı illərin ictimai-siyasi mənzərəsinə bu gündən baxanda aydın görünür ki, xalq öz ərazilərinin mübarizəsinə qalxsa da, müdafiə üçün hakimiyyətdən kömək tələb etsə də, lakin onun səsinə səs verən olmadı. Beləliklə, Qarabağı və Şərqi Zəngəzurun müəyyən ərazilərini itirməli olduq. Minlərlə övladımız şəhid oldu, itkin düşdü, sağlamlığını itirdi.

Bütün bu hadisələrin fonunda müstəqilliyi qoruyub saxlamağın nə qədər çətin olduğunu düşündükcə, yenə də o qənaətə gəlmək olur ki, bəli, Ulu Öndər həmin dövrdə hakimiyyətə gəlməsəydi, Naxçıvan da Qarabağ kimi işğal olunacaqdı, üstəlik də müstəqilliyimizi də yenidən itirəcəkdik. Çünki Bakıda 20 Yanvar faciəsi törədilən gecə ermənilər Naxçıvan sərhədlərinə də hücum etmişdi. Ölkə daxilində bu iki böyük hadisənin bir gecədə baş verməsi isə bütün bunların əvvəldən hazırlanmış plan olduğunu təsdiqləyən amildir.

## 27 sentyabrdan başlanan haqq yolu

1991-ci ildə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı qəbil olundu. İlk dəfə Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyada üçrəngli bayrağımız müstəqil Azərbaycanın rəmzi olaraq dövlət bayrağı kimi qaldırıldı. Başımız üzərində 70 il dalğalandırılan bayrağın yerini azadlığımızın və arzularımızın rəmzi olan bayrağımız aldı.




Ulu Öndər ölkənin dağıdılmış iqtisadiyyatı üzərində yeni bir Azərbaycan qurdu. 70 il sovet quruluşunun tərkibində müstəmləkə ölkə yavaş-yavaş müstəqilliyə uyğunlaşdırıldı, dirçəldilməyə başlandı. Dövlət və dövlətçilik bərqərar olundu. Sovet ordusunun töküntüləri ölkədən tamamilə təmizləndi. Və milli ordunun yaradılmasına başlandı.

Qarabağda vəziyyət isə dəyişilməz qalırdı. Nankor ermənilər sərhədlərimizdə hər saat, hər dəqiqə, gecəli-gündüzlü münaqişələr törədir, yeni ərazilər işğal etməyi planlaşdırırdı. Lakin bütün bunların qarşısı Ulu Öndər tərəfindən qısa zamanda alındı. Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi imzalandı. Və həmin müqavilənin əsas məqsədi Azərbaycanın dinclik şəraitində vaxt əldə etməsi, ölkənin iqtisadi gücünün nizamlaması, ordunun təkmilləşdirilməsi idi. Çünki bunlar olmasaydı, arxasında böyük qüvvələr dayanan Ermənistandan bir qarış torpaq da geri almaq mümkün olmayacaqdı. Əksinə, yeni qırğınlar baş verəcək, yeni torpaqlar zəbt olunacaqdı.





Ümummilli Liderimizin uzaqgörən siyasəti bütün bu məsələlərin həlli yolu oldu. Torpaqlarımızın son qarışınadək azad ediləcəyini bütün çıxışlarında bildirən Ulu Öndər Heydər Əliyev ölkəmizin ərazi bütövlüyünün bərpasının vacibliyini vurğulayır, bunun bir gün reallaşacağına əmin olduğunu söyləyirdi.

Həqiqətən də Azərbaycana zaman lazım idi. Müharibə başlamaq, torpaq azad etmək üçün böyük gücə ehtiyac vardı. Lakin ömür buna maneçilik törətdi. Ulu Öndəri itirdik, lakin onun ideyaları, gələcəyə hesablanmış inkişaf strategiyası 2004-cü ildə Prezident seçilən cənab İlham Əliyev tərəfindən eyni ideologiyaya istinadən davam etdirilməyə başlandı.

Torpaqlarımızın 2020-ci ildə azad edilməsinədək artıq ölkəmiz dünyanın tanıdığı güclü dövlətlərdən birinə çevrilmişdi. Prezident İlham Əliyev fəaliyyəti dövründə ölkənin ümumi inkişafını ordu quruculuğu ilə birlikdə həyata keçirmişdi. Hər dəfə torpaqlarımızın azad edilməsinin sülh yolu ilə mümkün olmadığı təqdirdə hərb yolu ilə olacağını bildirən ölkə başçısı dövləti hər iki variant üçün hazırlamışdı.

Uzun illər Qarabağın sülh yolu ilə alınmasına çalışdıq. Çünki biz müharibə görmüş xalq idik. Birinci Vətən müharibəsində minlərlə soydaşımız şəhid olmuşdu, minlərlə övladımız sağlamlığını itirmişdi. Bu hadisələrin bir daha təkrar olmaması üçün dövlətimizin başçısı beynəlxalq kürsülərdən dünyanı ədalətə səsləyirdi, haqqın kimin tərəfində olduğunu görməyə çağırırdı. Lakin səsimizə səs verən, haqqı görmək fikrində olan yox idi.

Beləliklə, biz hərbi yolu seçməli olduq. Çünki Qarabağın və Şərqi Zəngəzurun işğal olunmuş əraziləri bizin tarixi torpaqlarımız idi və ölkəmizin sahib olduğu güc artıq onların düşməndən geri alınması günü gətirmişdi. Həmin gün 2020-ci ilin 27 sentyabrından başlayıb 10 noyabrında bitən 44 gün oldu. Azərbaycan xalqı Ali Baş Komandanın sərkərdəliyi və milli ordumuzun qəhrəman əsgər və zabitlərinin birgə səyi ilə Qarabağı düşməndən geri aldı. Yenə də minlərlə şəhid verdik, qazi qazandıq, lakin alnımızın qara ləkəsini şəhid qanı yuyub apardı.

Qarabağa 30 il həsrət qalan üçrəngli bayrağımız əzəli yurdumuzu qarış-qarış gəzdi, zirvələrə qalxdı, müstəqillik nəğməsini o yurdlarda el-el səsləndirdi.

## Həm müstəqil, həm də bütöv-suveren olduq

Biz Bakıda müstəqil olmaq üçün bir yola çıxmışdıq. Müstəqil olduq da. Lakin zaman elə gətirdi ki, bu müstəqilliyi 30 il bütöv olmayan Vətənimizdə yaşamalı olduq. Bəli, müstəqil olduq, lakin bütöv ola bilmədik. Sanki üzərimizdə bir nəfs qalmışdı, istəklərimizi tam olmağa qoymurdu. Bir tərəfdən hökmən çəkəcəyimiz acılar vardı: 30 il məcburi köçkünlərin acısı kimi, şəhid, qazilərimizin nakam taleləri, bir daha qayıtmayacaq sağlamlıq durumları kimi... Bir də bəxtimizə yazılan nadan erməni ilə qonşuluğumuz kimi...

Baxmayaraq ki, 44 günlük Vətən müharibəsində bu nadan qonşu ağ bayraq qaldırıb təslim olmuşdu, Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış üçtərəfli bəyanatda üzərinə düşən öhdəlikləri həyata keçirməyə razılıq vermişdi, lakin gəlin görək, xisləti bunları etməyə imkan verdimi? Xeyr, vermədi. Düşmən nə minalanmış ərazilərin xəritəsini ortaya çıxardı, nə də bəyanatın 9-cu bəndinə müvafiq olaraq Naxçıvanı ölkə ilə birləşdirəcək dəhlizin reallaşmasına imkan verdi. Hələ üstəlik o ağırlıqda müharibədən sonra Xankəndidə yeni terrorçu qruplaşma meydana çıxdı. Burada münaqişələr törətməyə, dünyaya isə özlərini yenə məsum xalq kimi təqdim etməyə başladılar.



Lakin 2020-dən ötən 3 il ərzində bunlar hələ də anlamamışdı ki, qarşılarındakı 90-ların Azərbaycanı deyil. Qarşılarında güclü siyasəti, ordusu, hadisələrə yanaşma və həlletmə bacarığı olan dövlət var. Onlar bu dövlətin tarixi ərazilərində istədikləri hərəkəti edə bilməzlər. Və bu dövlətin sərhədləri daxilində qanuna müvafiq şəkildə yaşaya bilərlər.

20 sentyabr 2023-cü ildə Xankəndidə aparılan lokal xarakterli anti-terror tədbirləri ilə bu ərazimiz də düşməndən tamamilə təmizləndi. Beləliklə də Şərqi Zəngəzurun işğal altında olan əraziləri düşməndən azad edildi. Məhz bundan sonra Azərbaycan bütövləşdi, ərazilərimiz tamlaşdı, müstəqillik dalğası sərhədlərimizin bu başından o başınadək yayıldı.

***

20 Yanvardan yola çıxıb gəlib 20 Sentyabrda dayandıq. Biri bizim xalq kimi müstəqilliyə başladığımız tarix, digəri isə dövlətimizi bütövləşdirdiyimiz tarix oldu. Bir başlanğıcla bir son arasında isə 33 il-bir qərinə yaşandı.

Beləliklə, biz bir qərinə içərisində 270-üç yüzilliyə yaxın dövrdən sonra bir salnamə yaratdıq. Həm dövlətimizi müstəqil etdik, həm də üç əsrə yaxın bir dövrdən sonra bütövlüyünü təmin etdik. Və bir qərinəlik zaman kəsiyində belə qənaətə də gəldik ki, bəli, dövlətin başında layiqli və güclü başçı olmayanadək, orduya ağıllı və uzaqgörən sərkərdə rəhbərlik etməyənədək bir xalq nə bütöv, nə də müstəqil ola bilər. Nə yaxşı ki, bu xalqın taleyində Ümummilli Liderimiz Heydər Əliyev və onun siyasi və mənəvi varisi cənab İlham Əliyev varmış. Yoxsa, biz hələ də 90-lardakı kimi mübarizə və mücadilə girdabında çabalamaqda, çıxış yolunu haradasa, kimdəsə axtarmaqdaydıq... Unutmayaq ki, biz 44 günə 30 il ərzində zərrə-zərrə, addım-addım çata bildik. Böyük Zəfəri böyük çətinliklə əldə edə bildik.

***Mətanət Məmmədova***

# Bir, iki, üç: bəs sizin neçə uşağınız var?







***Son 10-15 gündür sosial şəbəkələri bir foto bəzəyib, insanların təbəssümlə paylaşdığı, bəyəndiyi, şərh yazdığı bir çoxuşaqlı ailə fotosu. Zərdab rayonunun Sarıqaya kəndində yaşayan Mustafayevlər ailəsinin böyütdüyü 7 uşaq bütün ölkədə maraqla qarşılandı. 2011-ci ildə ailə həyatı qurmuş ata və ana - Amil və Sevda Mustafayevlər 4 qız, 3 oğlan olmaqla, 7 övlad böyüdürlər. Onlardan 6-sı atanın idman müəllimi olduğu kənd məktəbində təhsil alır, ən kiçikləri isə məktəbəqədər hazırlıq sinfindədir.***

Ata mətbuata açıqlamasında özü də çoxuşaqlı ailədə böyüyüb: "Ailədə 13 uşaq olmuşuq - 8 qardaş, 5 bacı. Bəlkə də bu, genetik kodlara da təsir edir. Biz özümüz istəmişik ki, 7 övladımız olsun. Bizim heç bir işimiz plansız olmur, istər ailə büdcəsi, istər dolanışıq, işimiz. Belə olmasa, mümkün deyil. Plansız bir iş olsa, bu işlərin öhdəsindən gəlmək olmaz. Şükür Allaha, hamısı gül kimi uşaqdır. Mənim valideyn kimi üzərimə düşən yük onların təhsilli, sağlam böyüməsidir. İstəyirəm ki, digər ailələrə nümunə olaq. Bəzən düşünürlər ki, "çoxuşaqlı olmaq təhsildən, yaxşı yaşayışdan, cəmiyyətdən geri qalmaq deməkdir". Əslə yox, bizim ailədə bunun heç biri yoxdur. Bununla bərabər, kənardan göründüyü qədər də asan deyil. Bu məsələdə səbir, sevgi, məhəbbət olmalıdır. Maddi cəhətdən də işlərin öhdəsindən gəlirik, həm dövlətin hər uşağa verdiyi sosial müavinət var, həm də özüm, yoldaşım müəllim işləyirik. Yəni, bir təhər qayğıların öhdəsindən gəlirik. Hər şey qaydasındadır. Yeri gəlmişkən, çoxuşaqlı olmağın daha çox müsbət tərəfləri var. Uşaqların sevincini görmək, gülüş səslərini eşitmək, böyüdükdə isə onların sənə arxa-dayaq olmaları Vətənə, torpağa, ailəyə sevgi varsa, 10 uşağın da olsa, öhdəsindən gələ bilərsən".

Bu gün çoxuşaqlılıq müasir dünyanın ölkədən-ölkəyə dəyişən rəqəmləri ilə xarakterizə olunan anlayışdır. Bir ölkədə 2 uşaq ailə üçün çox sayılır, digər ölkədə 5-6 uşaqlı ailələrin daha çox uşaq sahibi olmaq barədə arzuları var. Çoxuşaqlılıq fərqli ölkələrdə fərqli səbəblərlə - demoqrafik, iqtisadi, sosial və mədəni faktorlarla sıx bağlıdır.

Dünya ölkələrində doğum sayı fərqli olduğuna görə bir qadına düşən uşaq sayı da kəskin fərqlənir. Afrika ölkələri - Niger, Çad, Somali dünyada ən yüksək doğum nisbətinə sahib olan ölkələrdəndir. Bu ölkələrdə bir qadına düşən orta uşaq sayı 5-7 arasındadır. Bu çoxuşaqlılığı könüllü istəməkdən ziyadə, ailə planlaması, hamiləlikdən qorunma kontraseptivləri barədə məlumatsızlıqdan irəli gəlir. Cənubi Asiya və bəzi Orta Şərq ölkələrində - Pakistan, Əfqanıstanda da çoxuşaqlı ailələr daha çoxdur. Avropa, Yaponiya, Cənubi Koreya və Kanada kimi inkişaf etmiş ölkələrdə 3 və daha çox uşağı olan ailələr demək olar ki nadir rastlanır, bu ölkələrdə ailələr adətən 1-2 uşaqla kifayətlənirlər.

Adətən, çoxuşaqlılığa təşviq edən əsas səbəb ənənəvi və dini dəyərlər olur. Xüsusilə də müsəlman ölkələrində ailədə çox uşaq bərəkət və ya ruzi kimi qiymətləndirilir. Lakin elə ölkələr də var ki, orada xüsusilə uşaqların kənd təsərrüfatlarında ucuz işçi qüvvəsi olması ailələri çoxuşaqlılığa sövq edir. Bir sıra ölkələrdə isə sosial təminatı olmayan, gələcəyindən narahatlıq duyan valideynlər çoxuşaqlılığı qocalığa yatırım olaraq görürlər.

Bəzi ölkələrdə qadınların təhsilə, karyeraya verdiyi önəm artıqca ailədə doğulan uşaqların sayı azalır, bəzi ölkələrdə isə ailə planlaşdırmasının məhdudluğu, kontraseptiv vasitələrə çıxış məhdud olduğu üçün doğum sayı yüksək olur. Yəni əslində çoxuşaqlılıq bəzən seçim, bəzən məcburiyyət olur.

Çoxuşaqlılıq meyarları hər ölkədə fərqli təsnif edilir. Meyarlar, əsasən, sosial yardım, vergi güzəşti, dövlət dəstəyi, ev və ya torpaqla təminat, uşaqlar üçün bank hesabı, müxtəlif sosial imtiyazlardır. Rusiyada 3 uşağı olan ailələr dövlətdən mənzil və ya torpaq sahəsi alır, bu ailələrin uşaqları məktəblərdə pulsuz qidalana bilirlər, imtiyazlı nəqliyyat istifadəçiləri olurlar, hər ay dövlət uşaqpulu ödəyir, hər uşaq üçün dəyəri təxminən 10 min AZN olan kapitalı olan sertifikat təqdim edilir. Bu sənəd nağdlaşdırıla bilməz, mülk alan zaman ilkin ödəniş kimi təqdim edilə bilər. Fransada da 3 uşağı olan ailələr çoxuşaqlı statusu alır, onlara vergi güzəştləri edilir, uşaq pulu alırlar, komunal güzəştləri və dövlət bağçalarına qəbulda üstünlükləri olur.

Almaniya qanunlarına görə 3 uşağı olan ailə rəsmi olaraq çoxuşaqlıdır və bu meyar üçün təyin edilmiş bütün imtiyazlardan istifadə edirlər. 3 uşağı olan ailələrin uşaqpulu və digər sosial ödənişləri uşağın sayına görə artır. Eyni tətbiq Türkiyədə də aktivdir, 3 uşaqlı ailələr çoxuaşqlılıq meyarına uyğundur və dövlət tərəfindən imtiyazları var. ABŞ-da "çoxuşaqlı ailə" anlayışı qanunvericiliklə tənzimlənmir, lakin bir çox dövlət proqramı 4 və daha çox uşaq olan ailələri çoxuşaqlı sayır, ərzaq yardımı, ödənişsiz tibbi xidmət, digər sosial yardım proqramları uşaqların sayına görə tənzimlənir.

Ümumiyyətlə, BMT və UNICEF kimi qurumlar 3 və ya 4 və daha çox uşağı olan ailələri çoxuşaqlı kimi qiymətləndirirlər və imtiyazlarının olmasını dəstəkləyirlər. Azərbaycanda yalnız 6 və daha çox uşağı olan ailələr çoxuşaqlılıq statusu ala bilir və hər uşaq üçün dövlət 140 AZN müavinət ödəyir. Uşaqlar bu məbləği 18 yaşınadək, əgər təhsilləri davam edirsə 23 yaşınadək ala bilərlər. Çoxuaşqlı ailənin əmək və məşğulluq güzəştləri olur, çoxuşaqlı analara iş yerlərində güzəştli şərtlər tətbiq olunur, əmək pensiyasına çıxışda əlavə hüquqları və sosial mənzilə müraciət imkanı olur.

***Lalə Mehralı***

# Ətin qiyməti niyə bahalaşır?



Elçin Bayramlı

***Ət və ət məhsulları bahalaşmaqda davam edir. Artıq paytaxtda mal ətinin kq-ı 17, qoyun ətinin kq-ı isə 21 manata təklif olunur. Bu isə o deməkdir ki, son bir ayda ət daha 10-15 faiz bahalaşıb. Cəmi 1-2 il əvvələ nisbətən ət 50 faiz bahalaşıb. Ətin bahalaşması təkcə bizdə deyil, bütün dünyada da baş verir. Lakin ölkəmizdə bu bahalaşma daha sürətlə gedir. Bunun da iki əsas səbəbi var: Biri lokal səbəblərdir, digəri isə qlobal səbəblər.***

Qlobal səbəb süni ət texnologiyasının artıq bir neçə ildir hazır olması və bəzi ölkələrdə dövriyyəyə buraxılması ilə bağlıdır. Proqramlaşdırılmış hüceyrələrin süni çoxaldılması nəticəsində əldə olunur. Genetikası tamamilə təbiilikdən çıxarılmış süni və təhlükəli məhsuldur. Bunu tədricən dünya istehlakçılarının süfrəsinə oturtmaq üçün qlobal bir proses gedir. Hazırda maya dəyəri 15 dollara qədər aşağı salınıb və getdikcə də aşağı düşür. Hədəf maya dəyərinin 5 dollara qədər salınmasıdır.

Buna paralel olaraq da bütün dünyada heyvandarlığa qarşı mübarizə gedir. Artıq bir çox Qərb ölkələrində insanların heyvan saxlaması üçün vergilər artırılıb, müxtəlif qadağalar və məhdudiyyətlər qoyulub. Bunu da qlobalistlər belə əsaslandırırlar ki, guya ki, heyvanlar xeyli metan və karbon qazı buraxır ki, bu da ozon qatını dağıdır, atmosferi çirkləndirərək təhlükə yaradır. Halbuki bu tamamilə əsassız bir bəhanədir. Dünyadakı sənaye zavodlarından buraxılan metan və karbon emissiyası daha çox təbiəti korlayır. Eyni zamanda avtomobillər, gəmilər daha çox havanı zəhərləyir. Yəni təbiətə zərər vuran qlobal kapitalist sənayesidir. Azğıncasına, qudurmuşcasına, vəhşicəsinə qurulmuş istehlak çılğınlığı nəticəsində zavod və fabriklərdə təbii resursların tələbatdan artıq istehsalı və emalı nəticəsində yaranmış təhlükəli maddələrlə atmosferə heyvanların buraxdığından milyon dəfələrlə artıq zərər vururlar.

Təbii heyvanların sıradan çıxarılması üçün hətta bəzi ölkələrdə heyvanlar arasında yayılan müxtəlif xəstəliklər buraxdılar. Kütləvi şəkildə heyvanların qırılması baş verdi. Bu prosesin bizə də təsirləri dəyir. Azərbaycan həm də xaricdən böyük həcmdə diri heyvan və ət idxal edir və idxaldan asılılıq getdikcə artır. 2024-cü ilin ilk yarımilində Azərbaycana 30,7 min ton ət idxal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 6,5 min ton (26,7 faiz), çoxdur.

Lokal səbəblər yerli istehsalla bağlıdır. Respublikada iri və xırdabuynuzlu heyvanların sayı 20 faizdən çox azalıb. Heyvandarlıq sahəsi son illərdə çox ciddi şəkildə tənəzzülə doğru gedir. Heyvandarlıq üçün xərclər artıb. Müxtəlif standartların qoyulması sahibkarların xərclərini artırır. Örüş yerləri kəskin azaldılıb əkin sahələrinə verilir. Heyvanların otarılması üçün ərazi də qalmayıb. Heyvan yemlərinin kəskin bahalaşması da ətin qiymətinin artmasına təsir göstərir.

Bu 2 səbəbi biz ümumilikdə götürsək aydındır ki, ətin qiyməti fasiləsiz olaraq durmadan bahalaşacaq. Qlobal plan belədir ki, yaxın bir neçə ildə təbii ət dövriyyədən çıxarılsın. Müxtəlif qadağalar gözlənilə bilər. Sağlamlıq, ekologiya adı altında heyvanlara qarşı bir virusun buraxılacağını güman edirəm.

Hazıda broyler sənayesi tamamilə qlobal korporasiyaların əlindədir. Bir müddət əvvəl quş qripini buraxmaqla, dünya ölkələrinin əksəriyyətində təbii quşları qırıb məhv etdilər, yerinə isə broyler sistemini oturtdular. Çox yaxşı ki, quş qripi dövründə bizim hökumət ağıllı tərpəndi, qlobal hay-həşirə uymadı. Bizim yerli quşların məhv olmasına imkan vermədi. Hələlik rayonlarımızda, kəndlərimizdə xeyli təbii toyuqlar, quşlar hələ ki, qalıb. Bir çox ölkələrdə, məsələn, qonşu Türkiyədə təbii toyuqlar artıq demək olar ki, yoxdur. İndi isə, hələlik insanların əlində qalan xırda buynuzlu və iribuynuzlu heyvanları da sıradan çıxarmaq istəyirlər.

Proqnozlara görə, artıq bəzi ölkələrdə dövriyyəyə buraxılan süni ət yaxın 5-10 ildə bütün dünyada geniş tətbiq olunacaq. Dadı ətlə təxminən eyni, qiyməti də ucuz olacaq. Sonrakı müddətdə də tədricən təbii heyvan əti tam dövriyyədən çıxarılacaq.

Bundan əvvəl necə ki, bütün qidaları süniləşdirdilər- meyvələri, tərəvəzləri, paxlalıları, taxılları bütün emal olunmuş, konservləşmiş qidaların hamısı süni maddələrdən ibarətdir. Eynilə bu proses heyvandarlıqda da gedir.

Buiz çalışmalıyıq ki, mümkün qədər bu prosesdən yan keçək. Öz təbii məhsullarımızı təbiətin yaratdığı nemətlərlə inkişaf etdirək. Dədə-baba toxumlarımızla əkin-biçin edək. Eynilə heyvandarlığı da, quşçuluğu da təbii formada inkişaf etdirək.

Yeri gəlmişkən, artıq balıqçılıqda da vəziyyət ağırdır. Süni dərmanlı göllərdə hormonal yemlərlə yetişdirilən balıqlar bazarın 95 faizindən çoxunu götürüb. Hələ ki, 3-5 faiz çaydan, göldən, dənizdən tutulan balıqları tapmaq olur.

Hazırda bütün dünyada qlobal qida terroru gedir. Azərbaycanı bu terrordan qoruması üçün hər cür imkanlar var- coğrafiyamız, iqlimimiz, təbii ehtiyyatlarımız təbii ərzaq təminatına imkan verir. Sadəcə qoruyucu tədbirlər görülməlidir. Dövlət təbii əkin-biçinlərin, heyvandarlığın inkişafı üçün yardımlar verməli, maneələri aradan qaldırmalıdır. Bu gün ərzaq təminatında biz 50 faizdən artıq idxaldan asılıyıq. Bunu aradan qaldırmaq üçün imkanlarımız var.

Bütün ölkəmizi təbii məhsullarla təmin edə bilərik. Bunun üçün böyük bir dövlət proqramı qəbul olunmalıdır. Məqsəd bu olmalıdır ki, kənd təsərrüfatında biz heç bir ölkədən asılı qalmayaq və eyni zamanda təbii qidaları süni qidalarla əvəzləməyək. Süni qidalar insanların genlərini dəyişir, psixologiyanı, sağlamlığı məhv edir. Bu ağır bir qlobal bioterrordur və biz bundan özümüzü qorumalıyıq.

# Xəyanətkarın buynuzu olmur ki...

## Adnan Əhmədzadənin əli ilə Azərbaycanın "şah damarı"ndan vurmaq istəyənlər necə yanıldılar?

Sentyabrın 26-da Aİ-yə üzv ölkələrin daimi nümayəndələri Avropa Komissiyasının (AK) təklif etdiyi 19-cu anti-Rusiya sanksiyalar paketini müzakirə edəcəklər. Keçən həftə AK təsdiq ediləcək yeni tədbirləri açıqlayıb. Bunlara Rusiya, Çin və Hindistan şirkətləri üçün ixrac nəzarətinin gücləndirilməsi, Ukraynaya kreditlərin təmin edilməsi üçün Rusiya aktivlərindən istifadə, bank və enerji sektorlarına qarşı tədbirlər, Mir kartlarından istifadə, 2027-ci ildən Rusiyanın LNG idxalına qadağa, ayrı-ayrı şirkətlərə və fiziki şəxslərə qarşı məhdudiyyətlər və digər məhdudiyyətlər daxildir. AK Rusiya bankları və maliyyə institutları ilə, o cümlədən üçüncü ölkələrdə fəaliyyət göstərən banklarla əməliyyatlara tam qadağa qoyulmasını təklif edir. Bundan başqa, sanksiyalardan yayınmada, gəlir əldə etməkdə və Rusiya hərbi sənayesini dəstəkləməkdə iştirak edən iri iqtisadi operatorların, habelə Rusiyanın kredit kartları sistemi və Sürətli Ödənişlər sistemini sanksiyalar siyahısına əlavə etməyi təklif edir

Qərb ekspertləri Rusiyanın dondurulmuş aktivləri ilə Arktika arasında əlaqənin olması qənaətinə gəliblər. Yeni sanksiyalar Rusiyanın texnologiyalara, o cümlədən süni intellekt və geoməkan məlumatlarına, eləcə də silah istehsalını gücləndirən kritik resurslara çıxışını məhdudlaşdıracaq. Avropa diplomatiyasının rəhbəri Kaja Kallasın sözlərinə görə, "Bura həmçinin Çin və Hindistan da daxil olmaqla xarici təchizatçılardan əldə edilən resurslar daxildir" deyə təhdidlərin siyahısını oxuyub.

Bir sözlə, Avropanın keçmiş baş ginekoloqunun rəhbərlik etdiyi Brüsselin qarşısıalınmaz təxəyyülünün hələ də hazırlaya biləcəyi hər şey, o cümlədən açıq-aşkar oğurluq cəhdləri son qanunsuz sanksiyalar paketinə sıxışdırılır. Brüssel hələ Donald Trampın Çin və Hindistandan gələn mallara ən azı 50% rüsum tətbiq etmək tələbini yerinə yetirməyə hazır deyil, lakin Fransanın xarici işlər naziri Jan-Noel Barrot paketin ABŞ ilə razılaşdırıldığını əmin edir. Macarıstan və Slovakiya, həmişə olduğu kimi, enerji təhlükəsizliyindən qorxaraq müqavimət göstərməyə çalışırlar. Bununla belə, Financial Times-a görə, AK vetosunu ləğv etmək üçün Budapeştin Aİ-nin təxminən 550 milyon avro vəsaitini dondurmağa hazırdır. Görünür, bu, AK-nin fikrincə, Macarıstanın bütövlüyünün qiymətidir. Sövdələşmə davam edir. Maraqlı sual yaranır, bəs Avropa ölkələri Rusiya istehsalı olan yanacağı haradan alır? Marşrutları izləsək cavabı da asanlıqla tapa bilərik. Məsələ bundadır ki, Avropanın Rusiyadan yanacaq tədarükünü sıfırlamaq tələbi üzərində israrla dayanan, bu məsələdə radikal olan ölkələri bazarlarını rusların üzünə bağlamağa tələsmirlər. Hətta Macarıstan və Slovakiyanın müxalif mövqeyini dəstəkləməkdə davam edirlər. Bəs Rusiya neft və qazı Avropaya hansı yollarla daşınır?

Düşündürücü olduğu qədər, bu sualın cavabı da asandır. Əlbəttə, qanunsuz yollarla, qeyri-leqal üsullarla, başqa adlar, başqa ölkələrin markaları, yarlıqları altında. Yadınızdadırsa, bu yaxınlarda Avropa ölkələrinə, konkret desək Rumıniya və Çexiyaya satılan Azərbaycan neftində yüksək dərəcəli çirklənmə aşkarlanmışdı. Bu təxribata imzanı kim qoymuşdu? Gümanlar şimal qonşumuzu göstərsə də əlahəzrət fakt ortada yox idi. Araşdırmalara gərək var idi. Soruşa bilərsiniz, niyə Rusiya? Niyə bu ölkə Azərbaycana qarşı "sapotajlıq" etməli idi? Cavabı Moskvanın yürütdüyü işğalçı siyasət səbəbindən Qərbin tətbiq etdiyi 18 sanksiya paketində tapmaq olar. Rusiya varlı Avropa bazarını rəsmi olaraq itirib və onun yerini tutan ölkələri müxtəlif yollarla, təxribatlarla oradan uzaqlaşdırmaq istəyir. Hadisələrin gedişatı onu göstərir ki, bəzi hallarda buna nail olur, amma tam olaraq deyil. Bu planda Rusiyanın "gizli donanması" da az rol oynamır. Müxtəlif ölkələrin bayraqları altında üzən gəmilərlə daşınan yanacaq əsasən Avropa bazarına doğru hərəkət edir. Bəs "leqallaşdırılmış" yanacaq hansı şirkətlərin, yaxud ayrı-ayrı şəxslərin əli ilə ünvanına çatdırılır? Bu da maraqlı sualdır.



### Rusiyanın maraqlarına boyun əyənlər

Dünyada silah satışı guya nəzarət altındadır. Amma statistika göstərir ki, rəsmi, leqal bazarlara nisbətən "qaçaq" silah tüccarları bu işi daha geniş şəkildə həyata keçirirlər. Bir tərəfdən dünyada kimin əlində nə qədər silah olduğu barədə rəqəmlər gizlədilir, eyni zamanda bu ticarətdən kimin nə qədər qazandığı da naməlum qalır. Siyasi tərəflərinə gəlincə, kimin kimi dəstəklədiyi də qeyri-müəyyən olur. Yanacaq satışına gəlincə, məqsəd də, siyasət də demək olar ki, eynidir. Rusiyanın sanksiyalardan yayınmaq üsullarında tətbiq olunanlar sıtasında qaçaq ticarətə üstünlük verməsi son aylar maliyyə sıxıntısı ilə bağlıdır. Rusiya həm də özünün Avropa bazarında əvəzedilməz olduğunu sübut etmək üçün təxribatın bütün üsullarından istifadə edir. Azərbaycan neftinin çirkləndirilməsi də bunlardan biridir.

Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) investisiya departamentinin sabiq rəhbər müavini Adnan Əhmədzadənin həbsində rəsmi səbəb kimi "İqtisadi təhlükəsizliyə qarşı təxribat və külli miqdarda mənimsəmə" faktları qeyd edilir. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) apardığı cinayət işinin əsas motivi "Azərbaycanın neft məhsullarının keyfiyyətinin aşağı salınması və dövlətə ziyan vurulması"dır. Məlum olur ki, Adnan Əhmədzadə Rusiya kəşfiyyatının təsiri altına düşərək, öz dövlətinə xəyanət edib. O, Rusiya neftinin qaçaq satışında iştirak edib. Rusiyanın xam neft məhsullarını "Azəri Layt" markalı neft məhsullarına qarışdırmaqla satışını təmin edib. Nəticədə Azərbaycanın neft sənayesinin etibarlılığına və bazar şəffaflığına zərbə vurub. Təxmini hesablamalara görə, çirklənmə səbəbindən "Azəri Light" markalı neftin qiyməti 75 dollardan 68,31 dollara düşüb. Bu, bir bareldə 6,69 dollar ucuzlaşma deməkdir. Nəticədə Azərbaycanın ixrac gəlirlərində 2,01 milyard dollar azalma baş verib. Bu isə ölkənin ÜDM-nin təxminən 0,9%-nə bərabərdir.

Bu əməl qlobal neft bazarında Azərbaycanın etibarlı tərəfdaş imicini korlamağa hesablanıb. Bu fakt artıq Avropa rəsmilərinin dilindən də səslənir. Əhmədzadənin Rusiyanın "maxinasiyalarına boyun əyməsi" təkcə mənimsəmə kimi yox, həm də dövlət maraqlarına qarşı təxribat kimi qəbul edilməlidir. Mətbuatdan oxuyuruq: Rusiyanın himayəsinə sığınan, Ukraynanın müstəqilliyinə qarşı çıxan qalmaqallı ekspert/bloger Yuri Podolyak avqust ayının 20-də paylaşdığı statusda "çirklənmiş nef skandalında Rusiya izi" ehtimalını gündəmə gətirir. Bloger sosial şəbəkə postunda Bakının neft ixracında probleminin olduğunu diqqətə çatdırıb. Dəyən zərərin maddi səviyyəsinin yüksək olduğunu bildirib. Qeyd edir ki, Bakının çəkdiyi iqtisadi zərər təxminən 420-770 milyon dollardır: "Bunun əsas səbəbləri Avropalı tərəfdaşların emal etmədiyi 5 partiya neft (350 mln $), "Korlanmış" neftdaşıyan gəminin gözləməsi (70 mln $), Ceyhan terminalından göndərilməyən 6 partiya neft (420 mln $), SOCAR-ın gündəlik 30 mln $ neft qiyməti üstünlüyünün azalmasıdır".

Adnan Əhmədzadənin bu əməli iqtisadi təhlükəsizliyə qarşı təxribat və külli miqdarda mənimsəmə kimi cinayətlər sayılır. Haqlı olaraq Bakı Səbail Rayon Məhkəməsində keçirilən məhkəmə iclasında, DTX-nın aparılan cinayət işi çərçivəsində, Adnan Əhmədzadə bu ittihamlarla üzləşib. İddia olunur ki, "Azeri Light" adlı xam neftə müxtəlif zərərli qarışıqlar qatılaraq keyfiyyəti aşağı salınıb, bu da Azərbaycanın neftinin rəqabət qabiliyyətinə ziyan vurub. Rusiya xeyrinə fəaliyyət, neftin və ya neft məhsullarının Rusiyadan gələn xammal adı altında Avropa bazarına çıxarılması cinayətin əsas tərkib hissəsidir. Vəzifə səlahiyyətlərindən sui-istifadə, mənimsəmə kimi cinayət məsuliyyəti onun SOCAR daxilindəki rəhbər vəzifəsində olması və bu vəzifədən istifadə etməklə dövlətə və iqtisadi maraqlara ziyan vurduğu iddia edilir. Qeyd edilir ki, Rusiya nefti "qara bazar" kanalları ilə satılır, Adnan Əhmədzadə bu şəbəkənin elementlərində böyük rol oynayır. Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən cinayət işi açılıb və o, məhkəmənin qərarı ilə ona qarşı 4 aylıq həbs?qətimkan tədbiri seçilib. Araşdırmalar hələ davam edir, ictimaiyyətə tam sənədləşmiş, məhkəmə nəticəsi verilmiş sübutlar hələ geniş şəkildə açıqlanmayıb.

"Casusluq", "vətənə xəyanət" kimi ifadələr termini rəsmi ittihamda hələlik qeyd olunmayıb. Amma olmaması da mümkün deyil. Qarışıqların kim tərəfindən, hansı standartlara uyğun olaraq, necə və nə qədər miqdarda əlavə edildiyi barədə konkret laboratoriya, ekspertiza nəticələri ictimaiyyətə tam təqdim edilməyib. Rusiya neftinin "xammal adı altında" satışı iddiası, saxta sənədləşmə var. Ofşor şirkətlərə bağlılıq, xaricdəki əmlak və hesabların kim tərəfindən maliyyələşdirilməsi kimi suallar var. Bir daha bəlli olur ki, uzun illər ərzində Rusiya ilə sıx təmaslar və bu ölkənin neftinin satışından əldə olunan milyardlar Adnan Əhmədzadənin Azərbaycana qarşı geostrateji silah kimi istifadə olunmaq üçün tam bir struktur olaraq yetişdirilməsi, formalaşdırılması ilə nəticələnib.

***V.VƏLİYEV***

REPLIKA

# "Azərbaycan regionda nəqliyyat və logistika sahəsinə ən çox sərmayə yatıran ölkələrdən biridir"



"Azərbaycan Prezidenti cənab İlham Əliyevin Amerika Birləşmiş Ştatları çərçivəsində keçirdiyi görüşlər və iştirak etdiyi yüksək səviyyəli tədbirlər bir daha onu göstərir ki, Azərbaycan beynəlxalq arenada mühüm strateji tərəfdaş kimi qəbul edilir. Bu səfər çərçivəsində Prezident İlham Əliyevin dünya miqyasında tanınan şirkət rəhbərləri, nüfuzlu siyasətçilər və beynəlxalq təşkilatların nümayəndələri ilə keçirdiyi görüşlər ölkəmizə olan marağın və hörmətin açıq göstəricisidir. Həmçinin qeyd etmək lazımdır ki, bu cür görüşlər Azərbaycanın artan siyasi çəkisinin və iqtisadi potensialının bariz nümunəsidir". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar Bayramov deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyevin qlobal səviyyədə formalaşmış nüfuzu nəticəsində dünyanın aparıcı şirkətləri ölkə başçısı ilə birbaşa görüşmək üçün mütəmadi şəkildə müraciətlər edirlər: "Bu isə bir daha təsdiq edir ki, Azərbaycanın strateji mövqeyi, iqtisadi imkanları və sabit siyasi mühiti xarici investorlar və tərəfdaşlar üçün xüsusi əhəmiyyət daşıyır. Belə yüksək səviyyəli dialoqlar eyni zamanda Azərbaycanla əməkdaşlıq etmək istəyən tərəflər üçün yeni imkanların açılmasına zəmin yaradır. Hazırda regionda reallaşan nəqliyyat və logistika layihələri içərisində Orta Dəhliz xüsusi əhəmiyyət daşıyır.

Dəhlizin genişlənməsi ilə Avropadan Asiyaya və əks istiqamətdə yüklərin daşınması daha sürətli, təhlükəsiz və səmərəli şəkildə həyata keçiriləcək. Bu isə təkcə region ölkələri üçün deyil, həm də beynəlxalq ticarət sisteminin bütövlükdə inkişafı üçün önəmli faktor sayılır. Azərbaycanın bu dəhlizdə oynadığı rol onun həm tranzit ölkə kimi imkanlarını genişləndirir, həm də ölkənin geosiyasi mövqeyini daha da gücləndirir. Zəngəzur dəhlizinin açılması perspektivi də Orta Dəhlizin genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu dəhlizin istifadəyə verilməsi regionda yeni nəqliyyat marşrutlarının formalaşmasına səbəb olacaq və Naxçıvanla Azərbaycanın digər bölgələri arasında birbaşa əlaqəni bərpa etməklə yanaşı, beynəlxalq yükdaşımaların da həcmini artıracaq. Bu baxımdan, Zəngəzur dəhlizi təkcə Azərbaycan üçün deyil, bütövlükdə region üçün strateji əhəmiyyətə malik layihədir. Eyni zamanda qeyd olunmalıdır ki, Azərbaycan regionda nəqliyyat və logistika sahəsinə ən çox sərmayə yatıran ölkələrdən biridir. Bu sahəyə edilən investisiyalar həm daxili iqtisadiyyatın inkişafını təmin edir, həm də ölkənin beynəlxalq nəqliyyat və logistika şəbəkəsinə inteqrasiyasını sürətləndirir. Gələcəkdə bu istiqamətdə atılacaq addımlar regionun daha da inkişafına, qarşılıqlı əlaqələrin möhkəmlənməsinə və iqtisadi əməkdaşlığın dərinləşməsinə şərait yaradacaq."

***Arzu Qurbanlı***

# “27 sentyabr fədakarlıq və milli birlik simvoludur”

***“Azərbaycan mətbuatında 27 sentyabr tarixi xüsusi önəm daşıyır. Məhz bu gün 2020-ci ildə Vətən müharibəsi başlamış, Azərbaycan Ordusu 44 gün ərzində işğal altında olan ərazilərini azad etmişdir”. Bu sözləri siyasi şərhçi Azər Həsrət SİA-ya açıqlamasında bildirib. O qeyd edib ki, müharibədən öncə Azərbaycan dövləti dəfələrlə beynəlxalq tribunalardan sülh çağırışları etmiş, Ermənistanı münaqişənin dinc yolla həllinə dəvət etmişdir: ”Prezident İlham Əliyev və digər dövlət rəsmiləri aydın şəkildə bəyan edirdilər ki, Azərbaycan Ermənistanla müharibə etmək istəmir, lakin torpaqlarının işğalı ilə də heç vaxt barışmayacaq. Təəssüf ki, bu çağırışlar beynəlxalq aləmdə və Ermənistan rəhbərliyi tərəfindən yanlış dəyərləndirildi. Ermənistan və onun havadarları - Rusiya, İran, Fransa kimi dövlətlər Azərbaycanın sülh təşəbbüslərini zəiflik kimi qəbul edərək, işğalın əbədiləşəcəyi təəssüratına qapılmışdılar.***



Halbuki Azərbaycan regionun güclü dövlətlərindən biri idi. Ölkənin məqsədi qan tökmək deyil, sülh yolu ilə problemin həllinə nail olmaq idi. Lakin Ermənistan illər ərzində dəfələrlə atəşkəsi pozmuş, hərbi təxribatlar törətmiş, Azərbaycan hərbçilərini şəhid etmişdir. 2020-ci ilin sentyabrında da Ermənistan ordusu genişmiqyaslı hücuma keçmişdir. Bu addım Azərbaycanı adekvat cavab verməyə vadar etmiş və nəticədə 27 sentyabrda Vətən müharibəsi başlamışdır.

44 gün davam edən müharibə nəticəsində Azərbaycan Ordusu işğal altındakı torpaqları azad etmiş, Qarabağ və Şərqi Zəngəzur bölgələri bütünlüklə Azərbaycanın nəzarətinə qayıtmışdır. Bu zəfər yalnız Ermənistan üzərində qazanılmış hərbi qələbə deyil, eyni zamanda Azərbaycan dövlətinin gücünün, iqtisadi-siyasi potensialının və xalqın milli birliyinin nümayişi olmuşdur.

Müasir dövrdə həmin torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Qarabağ və Şərqi Zəngəzur regionları yeni həyat, sosial-iqtisadi inkişaf və mədəni dirçəliş mərhələsinə qədəm qoymuşdur.

Azərbaycan cəmiyyəti üçün 27 sentyabr yalnız müharibənin başlanma tarixi deyil, həm də qəhrəmanlıq, fədakarlıq və milli birlik simvoludur. Bu qələbənin təmin olunmasında müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, Azərbaycan Ordusunun şücaəti, həmçinin şəhid və qazilərimizin fədakarlığı əsas rol oynamışdır. Dövlət və xalq olaraq bütün şəhidlərimizə, qazilərimizə və bu zəfərə töhfə verən hər kəsə daim minnətdarlıq göstərilir. Beləliklə, 27 sentyabr tarixi Azərbaycan jurnalistikasında və elmi-publisistik ədəbiyyatda müstəsna mövzudur. Bu gün həm tarixi dərs, həm də gələcək nəsillər üçün milli iradə və dövlətçilik nümunəsi kimi qiymətləndirilməlidir”.

***Səbinə Hüseynli***

# Skuter qəzalarının əsas səbəbi açıqlandı

“Skuterlərlə və ya qanunla müəyyən edilmiş kiçik elektrikli nəqliyyat vasitələri ilə baş verən qəzaların əsas səbəbi bu vasitələri idarə edən gənc vətəndaşlarımızın yol hərəkəti qaydalarını kifayət qədər bilməməsidir. Onlar, həmçinin, bu nəqliyyat vasitələrinin düzgün istifadəsi ilə bağlı qaydaları da yetərincə dərk etmirlər”. Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat üzrə ekspert Eldəniz Cəfərov deyib. Onun sözlərinə görə, bəzi avtomobil sürücüləri də yollarda belə nəqliyyat vasitələrini sıxışdırmağa çalışırlar ki, bu da doğru deyil: ”Əgər həmin vasitələr avtomobil yolunun sağ zolağından hərəkət edirsə, sürücülər onlara keçid üçün şərait yaratmalıdırlar. Əslində, bu nəqliyyat vasitələri əsasən təşkil olunmuş velosiped yolları ilə hərəkət edir. Lakin bəzi hallarda avtomobil yollarına çıxmalı olurlar və bu zaman bilməlidirlər ki, yalnız sağ zolaqla hərəkət etmək mümkündür.





Əvvəllər elektrikli skuterlər heç də populyar deyildi. Lakin indi yavaş-yavaş xüsusi zolaqlar yaradılır və insanlar, xüsusilə də gənclər bu vasitələrə maraq göstərməyə başlayırlar. Təəssüf ki, biz bu dəyişikliklərin sürətini tam izləyə bilmirik. Məhz buna görə də son dövrlərdə qəzaların sayı artaraq pik həddə çatıb. Bununla belə, düşünürəm ki, müəyyən müddətdən sonra qəza halları azalacaq, çünki yol hərəkətinin iştirakçıları skuter və digər elektrikli nəqliyyat vasitələrinə qarşı daha ehtiyatlı davranmağı öyrənəcəklər.

Skuter istifadəçiləri elementar qaydalara riayət etməlidirlər. Onlar avtomobil yolunun yalnız sağ zolağında hərəkət etməli, sol və ya orta zolağa çıxmamalıdırlar. Skuterin ön və arxa hissəsində yerləşən işıqlar qanunla müəyyən edilmiş qaydada daim işlək vəziyyətdə saxlanılmalıdır. Skuterdən yalnız bir nəfər istifadə edə bilər, çünki iki nəfərlə hərəkət etmək və ayaqların düzgün yerləşdirilməməsi ciddi təhlükə yaradır.

Qəzaların qarşısını almaq məqsədilə ötən ildən etibarən qanunvericilikdə dəyişikliklər edilib. Bu dəyişikliklər həm yol hərəkəti qaydalarında, həm də İnzibati Xətalar Məcəlləsində öz əksini tapıb. Skuter və digər elektrikli nəqliyyat vasitələrini idarə edən vətəndaşlar bu qanunları yaxşı bilməli və dərk etməlidirlər. Çünki bu vasitələr sadəcə əyləncə deyil, ciddi nəqliyyat vasitələridir və onların idarə olunması qanunun müəyyən etdiyi tələblərə tabedir. Bu istiqamətdə tədbirlər qanun çərçivəsində həyata keçirilir. Yay aylarında Dövlət Yol Polisi Bakıda, eləcə də Sumqayıtda maarifləndirici aksiyalar keçirərək vətəndaşları bu sahədə məlumatlandırıb”.

***Günel Fərzəliyeva***

# “Bakcell” regionun ən nüfuzlu innovasiya sammitinin tərəfdaşıdır

İnnovasiya və sürət lideri ”Bakcell” regionun ən mühüm texnoloji tədbiri - ”INMerge” İnnovasiya Sammitinin tərəfdaşıdır. Tədbir çərçivəsində ”Bakcell”in Azərbaycanda tətbiq etdiyi innovativ texnologiyalar və süni intellekt əsaslı həlləri təqdim olunacaq.

Globalinfo.az bildirir ki, tədbirin ilk günündə ”Bakcell”in baş icraçı direktoru Klaus Müller maliyyə və telekommunikasiya sahələri arasında qarşılıqlı imkanlar mövzusuna həsr olunacaq panel müzakirədə çıxış edəcək. Bundan əlavə, sammit zamanı iştirakçılar ”Bakcell”in stendində şirkət tərəfindən təqdim olunan ən son innovativ xidmət və məhsullarla tanış olmaq imkanı əldə edəcəklər. ”Bakcell” təqdim etdiyi innovasiya və süni intellekt əsaslı həllərlə Azərbaycanın rəqəmsal transformasiya və texnologiya ekosisteminin inkişafı istiqamətində daim təşəbbüslər həyata keçirir. Bununla yanaşı, şirkət dayanıqlı inkişaf və korporativ məsuliyyət strategiyası çərçivəsində innovasiya və süni intellekt sahəsində genişmiqyaslı fəaliyyətini davam etdirir.




”PAŞA Holding” tərəfindən təşkil olunan ”INMerge” İnnovasiya Sammiti 29-30 sentyabr tarixlərində Bakıda keçiriləcək və 30-dan çox ölkədən 1,000-dən artıq təsisçi, investor, korporativ lider və siyasətçini bir araya gətirəcək. İki gün davam edəcək sammitdə iştirakçılara yüksəkséviyyəli çıxışlar, panel müzakirələri, startap müsabiqələri və şəbəkələşmə imkanları təqdim olunacaq. Bu ilki sammitə ”IBM”, ”Microsoft”, ”Netflix”, ”Pixar” kimi bir çox qlobal və yerli şirkətlərin rəhbər və nümayəndələri qatılacaqlar.

”Bakcell” haqqında

”Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan ”Bakcell” süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. ”Bakcell” müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən ”NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Xəzər dənizi milli sərvətimizdir

Biz bir millət olaraq xoşbəxtik ki, ölkəmizin böyük yeraltı -yerüstü sərvətləri, füsünkar, göz oxşayan təbiəti, iri su hövzəsi olan çayları, gölləri və dənizi var. Xüsusilə də, Xəzər dənizi milli sərvətlərimiz arasında ən dəyərlisi hesab olunur. Çünki, Xəzər dənizi təkcə su hövzəsi deyil, həm də iqtisadi inkişafımıza mühüm töhfələr verən neft və qaz yataqları ilə də zəngindir, balıq və balıq məhsulları ilə xalqımıza, dövlətimizə firavan həyat bəxş edir. İstirahət üçün Xəzər dənizinin sahilləri ən ideal yer hesab olunur. Hər bir yaradıcı insan Xəzər dənizinin qızıl qumlu sahillərində daha çox vaxt keçirməyə, fikrə dalmağa, düşüncələr içində var-gələ etməyə çalışır. Çünki dəniz onun düşüncələrinə qol-qanad verir, ilhamlandırır. Azərbaycan folklorunda Xəzər təkcə coğrafi məkan yox, həm də ruhi-mədəni kodun bir parçasıdır. Aşıq poeziyasında, dastanlarda və el sənətində Xəzərin coşqusu, sərtliyi, sükunəti insanın ovqatını ifadə edən bənzətmələrlə doludur. Xalq şairi Süleyman Rüstəm şeirlərinin birində deyirdi:

Eşqi var, qanı var mənim canımda,
Dalğası dillənir həyəcanımda,
Xəzərsiz keçməyib bircə anım da,
Öləndə məzarım Xəzərim olsun.

Bütün bu və digər səbəblərə görə, birmənalı şəkildə demək olar ki, Xəzər dənizi həyatımızın, yaşayışımızın bir hissəsidir, bizə çox doğmadır, əzizdir. Xəzər dənizinin sahillərində 5 dövlət yerləşib. Azərbaycan Respublikası, Rusiya Federasiyası, Türkmənistan Respublikası, Qazaxıstan Respublikası və indiki fars-molla rejimi. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə Xəzəryanı dövlətlərin sayı beşə çatmış oldu. Bundan sonra Xəzər dənizinin hüquq statusunun müəyyənləşməsi məsələsi ortaya çıxdı. 2018-ci il 12 avqust tarixində Qazaxıstan Respublikasının Aktau şəhərində dəniz sahili dövlətlərinin ölkə başçılarının növbəti zirvə görüşündə Xəzərin hüquqi statusu məsələsi həll edildi.







## Xəzər dənizi özündə tarixin qaranlıq sirlərini yaşadır

Xəzər dənizinin sahəsi 371 min kvadrat kilometrdir. Uzunluğu şimaldan cənuba 1204 kilometr, orta eni 320 kilometrdir. Orta dərinliyi 184 metrə çatır. Sahil xətlərinin uzunluğu 7 min kilometrdir. Ən dərin yeri Lənkəran rayonu yaxınlığındadır -1030 metr. Xəzərin şimal və qərb sahillərində su dayazlaşıb bu da, dənizin içindəki bioloji müxtəlifliyə, su dövranına, hətta balıqçılıq potensialına birbaşa təsir edir. Xəzərə 130-dan çox çay axır ki, onların sırasında Kür, Terek, Sulak, Samur, Səfidrud, Ural, Emba, Volqa və digər çaylardır. Bu fakt onu deməyə əsas verir ki, Xəzər dənizi dünyanın ən iri su hövzəsidir. Bəzi yazılı məlumatlara görə, Xəzər dənizi bölgənin bəzi dənizləri ilə bitişik olub, xüsusi ilə Qara dənizlə. On altıncı əsrdə baş verən güclü zəlzələlər nəticəsində yerin təkində dərin qabarmalar baş verib, nəticədə Qara dənizlə Xəzər dənizi ikiyə bölünüb. Müxtəlif dövrlərdə dəniz fərli adlarla adlandırılıb. Məsələn, Kaspi, Ağcaqıl, Hünların adı ilə Huna və nəhayət Xəzər adlandırılmışdır. Qədim Çin mənbələrində Xəzər dənizi Si Hay, yəni Qərb dənizi adlandırılmışdır.

Xəzərin dəniz və ya göl adlandırılması mübahisə mövzusu yaradıb. Dəniz adlandırılması siyasi faktorla əlaqələndirilir. Çünki hidroloji baxımdan Xəzər qapalı su hövzəsidir və okeanla əlaqəsi yoxdur. Dənizin sularının tərkibi bəzi yerlərdə demək olar ki, şirindir, bəzilərində isə duzluğa yaxınlaşır. Bu xüsusiyyətlər Xəzəri digər böyük göllərdən fərqləndirir və təbiətinə xüsusi rəng qatır. 130 yaxın çayın Xəzərə axması onu həm də təsdiq edir ki, Xəzər dənizdir. Tarixən Xəzər dənizi Avropa, Asiya tədqiqatçılarının, səyyahlarının heyranlıqla izlədikləri, müşahidələr, tədqiqatlar apardıqları dəniz olub. Qədim yunan tarixçiləri Xəzər dənizinə "Hyrcanian dənizi" deyirdilər. XIII əsrdə Mərcozi, Abul Fida kimi coğrafiya alimləri Xəzərin xəritəsini çəkiblər və dənizin su səviyyəsinin dövri dəyişmələrini qeyd ediblər. Xəzər dənizi haqqında maraqlı antik dövr yunan və Roma mənbələrində rast gəlinir. Bu nöqteyi-nəzərdən ilk növbədə I Daranın zamanında Kiçik Asiyanın Milet şəhərində yaşamış qədim yunan tarixçisi və coğrafiyaçısı Miletli Hekateyin (e.ə. 546-480-ci illər) əsərlərini qeyd etmək lazımdır. Xəzər haqqında müxtəlif əfsanələr də yaranıb: onun sularında batmış qədim şəhərlər, sualtı sərvətlər və qəribə canlılar barədə xalq arasında miflər dolaşıb.Ən çox tarixi kitablarda, salnamələrdə qeyd olunan məlumatlar isə Xəzər dənizi sahillərində xəzərlərin, hunların yaşaması olmasıdır. Məhz Hun imperatoru Atilla Xəzər dənizi sahillərində imperiyasını qurmuş və Bakıya yaxın ərazilərdən Romaya hücum edib, qədim imperiyanı vergi verməyə ödəməyə məcbur etmişdir. Bu ərazilərdə həm də Xəzər xaqanlığı mövcud olmuşdur. Xaqanlığın tarixin ən qüdrətli dövlətlərindən olmasını sübut edən faktlar mövcuddur. Xəzərlərin sərhədlərindəki xalqlar və dövlətlər ilə sıx əlaqələri olmuşdur. Xəzərlər Bizans, Sasani, Ərəb imperiyaları ilə sıx əlaqələr qurmuşlar, slavyan qəbilələrini və İdil-bulqarlarını öz hakimiyyətləri altına almışlar. Xəzər-ərəb əlaqələri isə ən çox müharibə şəklində olmuşdur. İlk toqquşmalarda üstünlük xəzərlərin əlində olsa da, ərəb orduları VIII yüzillikdən sonra xəzərlər üzərində qələbələr əldə etməyə başlamışlar. Nəhayət, 737-ci ildə Xəzər xaqanı ərəblərdən sülh istəmiş və bundan sonra xəzərlər arasında İslam dini yayılmağa başlamışdır.

## Xəzər dənizinin xüsusiyyətləri

Xəzər dənizinin ən mühüm xüsusiyyəti səviyyəsinin mütəmadi olaraq qalxıb-enməsidir. Dənizin səviyyəsinin dəyişməsinə əsas səbəb onun su balansı elementlərinin dəyişməsidir. Su balansının mədaxilini (80%) çay axınları təşkil edir ki, onun da təqribən 85%-ə qədəri Volqa çayının gətirdiyi suların hesabındadır. Müşahidələr göstərir ki, çay axınları orta qiymətə nisbətən böyük intervalda dəyişikliklərə uğrayırlar. Buna səbəb isə dənizin çox geniş sutoplama hövzəsində (şimal yarım kürəsinin təxminən 20% ərazisi) baş verən hidrometeoroloji proseslərdir. Tarixi dövr ərzində (son 3500 il) dənizin səviyyəsinin dəyişməsi 15 m, son 200 ildə 3.5 m təşkil etmişdir. Xəzər dənizinin səviyyəsində həmçinin fəsli dəyişmələr müşahidə olunur ki, onun qiyməti 30-40 sm intervalında dəyişir. Səviyyə özünün ən yüksək qiymətini iyun-avqust aylarında, ən aşağı qiymətini isə dekabr-fevral aylarında alır. 2005-ci ildən Xəzər dənizinin səviyyəsində enmələr müşahidə olunmaqdadır. Son 3 ildə dəniz səviyyəsində stabilləşmə qeydə alınır. Belə ki, səviyyədə müşahidə olunan müntəzəm enmə 2015-ci ildən dayanmış və bu 3 il ərzində Xəzər dənizinin səviyyəsi Baltik sistemi ilə -27,67 m-ə bərabər olmuşdur. Xəzər dənizinin və onun təbii sərvətlərinin qorunması, ölkə Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Ölkə Prezidenti İlham Əliyevin Xəzərin ekoloji vəziyyətinin yaxşılaşdırılması ilə bağlı imzaladığı Fərman və Sərəncamlar bunun bariz nümunəsidir.

Xəzər dənizi sahillərində ekoloji vəziyyətin yaxşılaşması, çirklənmənin aradan qaldırılması və digər problemlərin həll edilməsi istiqamətində daim Azərbaycan dövləti, müxtəlif QHT-lər, ekoloqlar səmərəli təklif və ideyalarla çıxış ediblər. Hətta Azərbaycanın təşəbbüsü ilə Bakıda keçirilən COP29 çərçivəsində Xəzərin səviyyəsinin azalması ilə bağlı Bəyannamə qəbul edildi. Həm də COP29 tədbir çərçivəsində Xəzərlə bağlı önəmli razılıqlar da əldə olundu. Belə ki, COP29-da təşkil edilmiş Azərbaycan milli pavilyonunda "İqlim dəyişikliyi fonunda Xəzər dənizinin səviyyəsinin azalması" mövzusunda Xəzəryanı ölkələrin rəsmilərinin toplantısı keçirilib. Toplantıda Azərbaycanın, Qazaxıstanın, Rusiyanın, Türkmənistanın və indiki Fars-molla rejiminin nümayəndələri, dövlət rəsmiləri, BMT-nin Ətraf Mühit Proqramının (UNEP) icraçı direktoru və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Tədbirdə UNEP-in icraçı direktoru İnger Andersen tərəfindən təqdim olunan, Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə UNEP-in birgə əməkdaşlığı əsasında hazırlanan "Xəzər dənizi səviyyəsinin tərəddüdləri və iqlim dəyişmələri" adlı hesabatda dənizdə iqlim dəyişmələri və antropogen təsirlər fonunda ciddi problemlərin yarandığı göstərilib. Qeyd olunub ki, qarşıdakı onilliklərdə Xəzərdə suyun səviyyəsinin bundan sonra da enməsi ehtimalının qarşısını almaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi vacibdir. Əks halda dənizdəki ekosistemlərin məhvi, sahilyanı ərazilərdə əhalinin yaşayış yerlərini tərk etməsi, Xəzər sahillərindəki ölkələrin iqtisadiyyatlarının təhlükə altına düşməsi qaçılmaz olacaq. Bütün bunlar onun nişanəsidir ki, Xəzərdəki böhran təkcə ekoloji deyil, həm də humanitar xarakter daşıyır, dolanışıq və ərzaq təhlükəsizliyinə ciddi təsir edərək milyonlarla insanın gündəlik həyatında mənfi rol oynayır.

Bir sözlə, Xəzər dənizi bizim doğmamızdır, əzizmizdir. Onu qorumaq, mühafizə etmək hər bir kəsin müqəddəs borcu olmalıdır. Bu işi yerinə yetirməklə keçmişimizə dəyər, bu günümüzə hörmət, gələcəyimizə rəğbət nümayiş etdirmiş oluruq. Unutmaq olmaz ki, işıqlı insanlarımız, ziyalılarımız - öləndə məzarım Xəzərim olsun-deyir.

***İLHAM ƏLİYEV***

# Boşanmanın qadınlar üzərindəki təsiri



***Boşanma, yalnız iki insanın həyat yollarının ayrılması deyil, həm də bütün bir cəmiyyətin bu hadisəyə verdiyi reaksiyanın göstəricisidir. Xüsusilə qadınlar üçün boşanma, hüquqi bir prosesdən çox, sosial damğalanma, psixoloji gərginlik və iqtisadi məsuliyyətin artması ilə müşayiət olunur. Əksər hallarda qadın, boşanmanın əsas qınaq obyektinə çevrilir. Onun şəxsi həyatı, ailə münasibətləri və hətta gələcək planları belə, cəmiyyətin mühakimə obyekti olur. Məsələ təkcə şəxsi münasibətin bitməsi deyil, həm də patriarxal dəyərlərin qadın üzərində yaratdığı yükdür. "Boşanmış qadın" etiketi çox zaman "uğursuz qadın" anlayışı ilə eyniləşdirilir. Halbuki, boşanma bəzən qadının zorakılıqdan, təzyiqdən və ya psixoloji yükdən qurtulmaq üçün atdığı cəsarətli bir addımdır. Amma buna baxmayaraq, cəmiyyətin bir çox seqmentində bu addım qadının "zəifliyi" və ya "səhvi" kimi yozulur.***

Məsələn, son illərdə sosial şəbəkələrdə tez-tez boşanmış qadınların paylaşdığı təcrübələr görürük. Onların bir çoxu bildirir ki, boşandıqdan sonra "öz həyatını seçmək azadlığı" qazanıb, amma eyni zamanda "qonşuların baxışları", "qohumların sualları" və "iş yerində qeyri-rəsmi münasibətlər" ilə üzləşiblər. ABŞ psixoloqu Judith Wallerstein də bu barədə yazırdı: "Boşanma yalnız şəxsi həyatın sonu deyil, həm də ictimai münasibətlərdə yeni bir başlanğıcdır. Bu başlanğıc çox zaman qadın üçün daha çətin olur". Azərbaycan reallığında da vəziyyət oxşardır. Qadın boşandığı andan etibarən onun geyimindən danışıq tərzinə, uşaqlarına yanaşmasından iş həyatına qədər hər addımı müşahidə və qiymətləndirmə obyektinə çevrilir. Bu baxımdan boşanma yalnız ailədaxili bir məsələ deyil, eyni zamanda sosial psixologiyanın cəmiyyətə təsirini açıq göstərən hadisədir.

## Boşanma və sosial damğalanma

Boşanma hadisəsinin ən ağır nəticələrindən biri qadının sosial damğalanmaya məruz qalmasıdır. Cəmiyyətin böyük bir qismi üçün boşanma, yalnız iki fərdin münasibətinin bitməsi deyil, həm də "ailənin dağılması" kimi qəbul olunur. Burada "ailəni qorumaq" məsuliyyəti isə əksər hallarda yalnız qadının üzərinə yüklənir. Qadının boşanma qərarı verməsi, onun "səbir göstərə bilməməsi" və ya "fədakarlıqdan imtina etməsi" kimi yozulur. Bu damğalanmanın kökləri patriarxal düşüncə sistemində yatır. Ənənəvi təsəvvürlərdə qadın ailənin dayağı, evin qoruyucusu kimi dəyərləndirilir. Bu səbəbdən, ailə dağıldıqda ilk mühakimə olunan tərəf kişi deyil, qadın olur. Halbuki, münasibətlərin pozulması səbəbləri (zorakılıq, xəyanət, psixoloji uyğunsuzluq, iqtisadi problemlər) hər iki tərəflə bağlı ola bilər. Amma sosial şüurda qadının adı avtomatik "məsuliyyətli tərəf" kimi çəkilir.

Günümüzdə də bu damğalanma dəyişməyib, sadəcə forması modernləşib. Əvvəllər qohum-əqrəba içində pıçıldanan sözlər indi sosial şəbəkələrdə açıq müzakirəyə çevrilib. Məsələn, boşanmış bir qadının yeni iş qurması, sosial mediada aktiv olması və ya ikinci dəfə ailə həyatı qurması çox zaman "tənqid" və "şübhə" ilə qarşılanır. İctimai qınaq mexanizmi, həm real həyatda, həm də virtual məkanda qadını izləməkdədir. Sosioloq Erving Goffman "damğa" (stigma) anlayışında qeyd edirdi ki, fərd cəmiyyətin gözündə müəyyən bir "iz" daşımağa başlayanda onun sosial kimliyi dəyişir. Boşanmış qadın da məhz bu damğa ilə üz-üzə qalır: o, artıq "qadın" yox, "boşanmış qadın" kimi tanınır. Bu kimlik fərqi onun həyatının bütün sferalarında hiss olunur.

Məsələn, Azərbaycanda tez-tez eşidilən bir fikir var: "Boşanmış qadın uşağını necə böyüdəcək?" Bu cümlə əslində qadına qarşı şübhəni, onun sosial bacarığını inkarı ifadə edir. Halbuki, dünyada yüzlərlə nümunə göstərir ki, boşanmış qadınlar həm uğurlu karyera, həm də sağlam ailə mühitini qura bilirlər. Türkiyədə aparılan bir sorğuya görə, boşanmış qadınların 63%-i boşandıqdan sonra özünü daha azad və güclü hiss etdiyini bildirib. Bu isə göstərir ki, damğalanma ilə real təcrübə arasında böyük ziddiyyət mövcuddur. Beləliklə, boşanma qadının şəxsi həyatından çıxıb, ictimai münasibətlər səhnəsinə daşınır. Qadın artıq yalnız bir fərd deyil, "mübahisə mövzusu"na çevrilir. Onun həyat hekayəsi, seçimləri və qərarları kollektiv şüurun mühakiməsinə təqdim olunur.

## Psixoloji təsirlər

Boşanma qadınların psixoloji həyatında ən çox sarsıntı yaradan hadisələrdən biridir. Bu sarsıntı təkcə şəxsi münasibətin bitməsindən qaynaqlanmır, həm də onun ardınca gələn sosial damğalanma, ailə və qohum təzyiqi, həmçinin iqtisadi narahatlıqlarla birləşərək çoxqatlı bir gərginlik yaradır. Qadın boşandıqda çox vaxt özünü "uğursuz" kimi hiss etdirən bir mühitin içində qalır. "Ailəni saxlaya bilmədi", "ərini əlində tuta bilmədi" kimi ifadələr onun psixikasında dərindən iz buraxır. Bu vəziyyət qadının özünə inamını zəiflədərək, uzun müddət davam edən depressiv əhval-ruhiyyə yarada bilər.

Məsələn, psixoloq Brene Brown yazır ki: "Cəmiyyətin yaratdığı utanc hissi qadının özünü daha çox günahkar görməsinə səbəb olur. Halbuki, günah çox vaxt fərdin deyil, quruluşun və münasibətlərin üzərindədir."

Boşanma qadının içində "günahkarlıq kompleksi" yaradır. Bu, xüsusilə analıq rolu olan qadınlarda daha da ağır olur. Qadın çox zaman uşaqlarına qarşı məsuliyyət daşıdığı üçün "onların ailəsini dağıtdım" düşüncəsinə qapılır. Halbuki, aparılan araşdırmalar göstərir ki, uşaqların psixoloji rifahını pozan faktor boşanmanın özü deyil, davamlı konflikt və zorakılıq mühitində yaşamaqdır. Bu, qadının günahkarlıq hissinin çox vaxt əsassız olduğunu ortaya qoyur.

Azərbaycan və digər ənənəvi cəmiyyətlərdə boşanmış qadın həm də "tək ana" kimliyi ilə damğalanır. Ondan həm maddi, həm də mənəvi baxımdan daha çox güc gözlənilir. "Atasız böyüyən uşaq necə olacaq?" sualı isə qadının üzərinə əlavə yük qoyur. Bu, qadında həm özünə inamsızlıq, həm də davamlı narahatlıq yaradır.

Günümüzdən bir misal: sosial şəbəkələrdə tez-tez boşanmış qadınların "ikili rol"dan danışdıqlarını görürük. Onlar bir tərəfdən çörək qazanmaq üçün işləyir, digər tərəfdən isə uşaqlarını təkbaşına böyütməyə çalışırlar. Bu, çox vaxt tükənmişlik sindromuna gətirib çıxarır.

Qadın boşandıqdan sonra sosial münasibətlərində də dəyişikliklər yaşayır. Əksər hallarda qohum çevrəsi ilə münasibətlər soyuyur, dost çevrəsində isə "maraq obyekti"nə çevrilir. Goffmanın "damğa" anlayışı burada yenidən üzə çıxır: qadın artıq adi fərd deyil, "boşanmış qadın" kimliyi ilə tanınır. Bu isə sosial təcrid və tənha qalma qorxusu yaradır.

Türkiyədə aparılan bir sorğuya görə, boşanmış qadınların 58%-i "çox yaxın dost çevrəsinin belə onlara münasibətinin dəyişdiyini" bildirib. Azərbaycan reallığında isə sosial mediada tez-tez "boşanmış qadınların" seçdiyi geyim, həyat tərzi və davranışları müzakirə olunur. Bu isə qadının psixoloji olaraq daim müşahidə altında qalması hissini gücləndirir. Qərb ölkələrində isə boşanma daha çox şəxsi seçim kimi qəbul olunsa da, orada da qadınların emosional yükünün kişilərdən qat-qat ağır olduğu araşdırmalarla sübut edilib. Beləliklə, psixoloji təsirlər sadəcə boşanma anında yox, ondan sonrakı illərdə də qadının həyatına sirayət edir. Bu, həm onun özünü dərk etməsinə, həm sosial münasibətlərinə, həm də analıq roluna təsir göstərir.

## İqtisadi məsuliyyət və gündəlik həyat

Boşanmanın qadınlar üzərində ən çox hiss olunan nəticələrindən biri iqtisadi məsuliyyətin artmasıdır. Ənənəvi ailə modelində qadın çox vaxt evin iç işləri və uşaqların qayğısı ilə məşğul olur, kişi isə əsas çörək gətirən kimi dəyərləndirilir. Boşanma anında bu balans pozulur və qadın bir anda həm maddi, həm də mənəvi yükü daşımalı olur. Boşanmış qadın çox vaxt həm öz həyatını təmin etmək, həm də uşaqlarının ehtiyaclarını qarşılamaq məcburiyyətində qalır. Azərbaycan reallığında aliment məsələsi çox vaxt ya gecikdirilir, ya da tam şəkildə ödənilmir. Bu isə qadının çiyinlərinə əlavə məsuliyyət qoyur.

Məsələn, 2024-cü ildə Azərbaycanda aparılan bir hüquqi araşdırmada göstərilirdi ki, aliment qərarlarının əhəmiyyətli hissəsi icra olunmur və qadınlar məhkəmə proseslərində dəfələrlə süründürməçiliklə üzləşirlər. Qadınlar çox vaxt iş həyatında ikiqat sınaq keçir. Bir tərəfdən iş mühitində "boşanmış qadın" damğası ilə üzləşirlər, onların işə qəbulunda, əməkdaşlarla münasibətlərində stereotiplər özünü göstərir. Digər tərəfdən isə evdə bütün yükü təkbaşına daşımalı olurlar. Bu balanssızlıq qadının tükənmişlik hissini artırır. Sosioloq Arlie Hochschild bunu "ikinci növbə" termini ilə ifadə etmişdi: qadınlar işdən evə qayıtdıqdan sonra ikinci dəfə iş yükü (ev işləri və uşaqların qayğısı) ilə qarşılaşır. Boşanmış qadın üçün bu "ikinci növbə" daha da ağırlaşır, çünki paylaşacaq tərəf yoxdur.

Çox ölkələrdə boşanmış qadınlara dövlət dəstəyi proqramları mövcuddur (uşaq baxımı yardımı, sosial müavinətlər, hüquqi xidmətlər). Azərbaycanda isə bu sahədə sistem hələ zəifdir. Çox qadın məcburən qeyri-rəsmi işlərdə çalışır və bu da onların sosial təminatsız qalmasına gətirib çıxarır. Məsələn, şəhər yerlərində qadınlar ofis və xidmət sektorunda iş tapa bilsələr də, kənd yerlərində boşanmış qadınların əksəriyyəti ya valideyn evinə dönür, ya da ucuz iş gücü kimi istismar olunur.

## Cəmiyyət və qohum çevrəsi ilə münasibətlər

Bu vəziyyət qadının yalnız ailədaxili münasibətlərini deyil, həm də bütün sosial çevrəsini dəyişir. Ənənəvi dəyərlərin güclü olduğu cəmiyyətlərdə boşanmış qadın çox vaxt "nəzarət altında olan" və "təhlil edilən" fiqura çevrilir. Onun sosial kimliyi artıq əvvəlki kimi "qadın" deyil, "boşanmış qadın" etiketi ilə müəyyənləşir. Bu etiket isə həm qohum çevrəsinin, həm də geniş ictimaiyyətin ona münasibətində mühüm rol oynayır.

Qadın boşandıqda ilk dəyişiklik qohum çevrəsində özünü göstərir. Əksər hallarda qadının ailəsi boşanmanı "ayıb" kimi qəbul edir və onu ya gizlətməyə, ya da "tez bir çıxış yolu" tapmağa çalışır. Qardaşlar, xalalar, dayılar çox vaxt qadına "barış", "uşaqlar üçün döz" məsləhətləri verir. Bu, qadının seçim haqqını daha da sıxışdırır.

Digər tərəfdən, bəzi hallarda qadın boşandıqdan sonra valideyn evinə dönmək məcburiyyətində qalır. Bu isə onun həm maddi müstəqilliyini, həm də şəxsi sərhədlərini məhdudlaşdırır. Belə hallarda qadın yalnız boşanmanın yox, həm də qohum nəzarətinin psixoloji yükünü daşıyır.

Qonşuların və tanışların münasibəti isə çox vaxt qadının gündəlik həyatına birbaşa təsir edir. "Boşanmış qadın" imici çox vaxt şübhə, qınaq və hətta təhlükə ilə müşayiət olunur. Bəzi kişilər bu etiketi qadının "qorumasız" olması kimi dəyərləndirərək sui-istifadəyə meyil göstərə bilirlər. Bu səbəbdən bir çox qadın öz hərəkətlərini, geyimini və davranışlarını daim "göz altında" hiss edir.

Məsələn, Azərbaycanda sosial mediada tez-tez rast gəlinən bir hal var: qadın boşandıqdan sonra sosial şəbəkədə aktiv olduqda dərhal "diqqət çəkmək istəyir" və ya "yenidən evlənmək üçün çalışır" kimi şərhlərə məruz qalır. Halbuki, bu, qadının sadəcə özünüifadə formasıdır.

Boşanmış qadınların üzləşdiyi sosial təzyiqlərdən biri də ikinci evlilik mövzusudur. Qohum çevrəsi çox vaxt qadının "tək qalmaması üçün" yeni ailə qurmasını istəyir. Digər tərəfdən isə cəmiyyət boşanmış qadının ikinci dəfə evlənməsini çox zaman mənfi rəy ilə qarşılayır. Bu paradoks qadını çıxılmaz vəziyyətə salır: həm "evlənməlisən" deyilir, həm də "evlənsən belə, artıq əvvəlki kimi hörmətin olmayacaq" mesajı verilir.

Müasir dövrdə sosial mühitin bir qismi virtual məkana köçüb. Sosial şəbəkələr qadınların həm özünüifadə yeri, həm də damğalanma məkanıdır. Qadın boşandıqdan sonra sosial mediada paylaşım edəndə, geyimində dəyişiklik etdikdə və ya sadəcə xoşbəxt göründükdə belə, "tez unudub", "uşaqlarını düşünmür" kimi ittihamlarla qarşılaşır.

Beləliklə, boşanma qadını qınaq obyektinə çevirməklə yanaşı, onu həm də güclü müqavimət strategiyaları qurmağa məcbur edir. Bu strategiyalar sayəsində qadın yalnız həyatda qalmaqla kifayətlənmir, həm də özünü yenidən kəşf edir. Boşanma bir ailənin sonu kimi görünə bilər, amma o, həm də yeni bir başlanğıcın qapısıdır. Qadınların üzərinə yönələn qınaq, ittiham və sosial təzyiq yalnız onların şəxsi həyatını deyil, bütövlükdə cəmiyyətin inkişafını da ləngidir. Çünki güclü qadın yalnız özünü deyil, uşaqlarını, ailəsini və ətrafını da gücləndirir.

Hər kəsin öz xoşbəxtliyini qurmaq haqqı var və bu yolda qadınlara dəstək olmaq cəmiyyətin sağlam gələcəyi üçün vacibdir. Qadınları qınaq obyektinə çevirmək əvəzinə, onlara həmrəy olmaq, anlayış göstərmək və güvən vermək ən böyük sosial dəstək ola bilər. Unutmayın ki, ətrafınızdakı qadınların seçimlərinə hörmət etməlisiniz. Qınaqla yox, anlayışla yanaşın. Çünki anlayışlı cəmiyyət güclü cəmiyyət deməkdir.

***Nigar Şahverdiyeva***

# Ay camaat, gəlin yığışaq, gedin müharibəyə

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Ukraynalı deputat: Tramp Zelenskini və avropalıları trollayır: "Siz çox güclüsünüz, Rusiya zəifdir- gedin, Rusiya ilə vuruşun, amma bizdən pulla silah almalısınız"





***ABŞ prezidenti Donald Tramp əmindir ki, Ukrayna "bütün ərazisini geri ala" və "irəliləyə" bilər. Ancaq bu, yalnız Aİ-nin dəstəyi ilə mümkündür və əgər Kiyev və Brüssel Vaşinqtondan silah alarsa,- Donald Tramp Vladimir Zelenski ilə görüşdən sonra deyib. "Biz NATO-ya silah tədarük etməyə davam edəcəyik ki, NATO onlarla istədiyini etsin. Hər kəsə uğurlar!"- ABŞ prezidenti qeyd edib.***

Moskvada ABŞ prezidentinin bu açıqlaması sərt qarşılanıb.

Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov vurğulayıb ki, cəbhədəki dinamika göstərir ki, indi danışıqlar aparmaq istəməyənlər sabah və ertəsi gün daha pis vəziyyətdə olacaq.

Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev hesab edir ki, Tramp növbəti dəfə alternativ reallığa qədəm qoyub. "Bu alternativ reallıqda hər şey fərqlidir. Kiyev qalib gəlir, Rusiya bərbad vəziyyətdədir, Banderanın Ukraynasının iqtisadiyyatı isə öz resursları sayəsində inamla inkişaf edir",- o, Telegram kanalında yazıb.

Avropada isə Amerika prezidentinin bəyanatından sonra sevinirlər. Avropa diplomatiyasının rəhbəri Kaja Kallas Trampın fikrini dəyişməsini alqışladığını bildirib: "Bu, həqiqətən də bir-birimizi bərabər şəkildə başa düşdüyümüzü göstərir".

Analitiklər Trampın sözlərinin əslində nə demək olduğunu müzakirə edirlər: müharibə tərəfdarı olmaq, Avropa və Zelenskini trollamaq və ya pul qazanmaq istəyi?

Fransanın "Le Figaro" qəzeti ABŞ prezidentinin sözlərini "o, Kiyevə qarşı antipatiyasını və Vladimir Putinə olan meylini ilk dəfə aradan qaldırmış kimi görünür" deyə şərh edib.

"Tramp prezidentliyinin əsas xarici siyasət məsələlərindən biri ilə bağlı mövqeyini dəyişərək, Ukraynanın Rusiya ilə sülh sazişi bağlamaq üçün ərazisinin bir hissəsini verməsi tələbindən əl çəkib",- "The New York Times" yazır.





Ancaq Ukraynada heç də hamı sevinci bölüşmür. Ali Radanın deputatı Aleksey Qonçarenko (Rusiyada terrorçu və ekstremist siyahısındadır) hesab edir ki, Tramp Putinə Ukraynanın həyatı bahasına nəyin olduğunu göstərmək istəyir. Qonçarenko etiraz edib: "Çalışaq ki, ABŞ və ya Aİ maraqlarını ukraynalıların həyatı ilə müdafiə etməyək. ABŞ Rusiyaya cavab vermək istəyirsə, müharibəyə getsinlər".

Radanın keçmiş deputatı Oleq Tsarev də eyni fikirdədir: "Tramp niyə boş-boş danışır? O, bunu birəkdən edir. O, Zelenskini və avropalıları trollayır: "Siz çox güclüsünüz, Rusiya zəifdir- gedin Rusiya ilə təkbaşına vuruşun". ABŞ prezidenti əvvəlki yanaşmaların dalana dirəndiyinə əmin oldu".

Politoloq Fyodor Lukyanov Telegram kanalında yazıb: "Heç bir dəyişiklik baş vermir, nizamlanma yaxınlaşmır və həyata keçirilməyən cəza hədəsi etibarı itirmək riski daşıyır. Buna uyğun olaraq, biz taktikanı dəyişdirməliyik, elan edilən budur".

Onun fikrincə, Ukrayna və Avropa hərəkətə keçməyə sövq edilib: "Nə edə biləcəyinizi göstərin, mən bilirəm ki, bacarırsınız. Amma bunu özünüz edin, zəhmət olmasa. Şeytan onun çəkdiyi kimi qara deyil, siz bunu edə bilərsiniz..." Ancaq vəzifə qeyri-mümkün kimi qarşıya qoyulub və bu aydın olanda yeni razılaşma cəhdi təklif olunacaq. Bu fərziyyəni analitik izah edib".

Politoloq Aleksey Çesnakov da oxşar fikri bölüşür: "Tramp ümid edir ki, növbəti eskalasiya raundundan sonra tərəflər münaqişədə öz üstünlüklərini hərbi yolla artırmağın qeyri-mümkün olduğu qənaətinə gələcəklər, yəni danışıqlar zəruridir və bundan sonra Vaşinqton vasitəçiliyə qayıdacaq".

"Əslində, ABŞ prezidenti dünən nizamlanma prosesindən uzaqlaşdı. Bu o deməkdir ki, bizi ən azı növbəti qış-yay hərbi kampaniyası gözləyir",- ekspert öz Telegram kanalında proqnozunu yazıb.

Hərbi analitiklər hesab edirlər ki, Trampın bəyanatlarından sonra ABŞ və NATO keçmiş uğursuzluqları yeni, daha böyük təchizatla kompensasiya etməyə cəhd edə bilər.

"Yeni bir eskalasiya raundu ilə onlar əvvəllər rədd etdiklərini- məsələn, uzunmənzilli "Taurus" raketləri və əlavə ATACMS raket sistemləri partiyaları göndərə bilər. Bu, Ukrayna Silahlı Qüvvələrinin zərbə imkanlarını gücləndirəcək, lakin sistemli problemi həll etməyəcək: hava üstünlüyü və hərtərəfli atəş dəstəyi olmadan onlar asanlıqla məhv ediləcək"- "Voyennaya xronika" Telegram kanalı yazır.

"Həm Trampın özü, həm onun müşavirləri, həm də NATO-dakı insanlar yaxşı başa düşürlər ki, real nəticələrə nail olmaq üçün əvvəlkindən daha çox silahdan istifadə etməli olacaqlar və bununla da NATO-nun münaqişəyə birbaşa cəlb olunma riski artacaq",- ekspertlər vurğulayıblar. Bu fonda ən vacibi odur ki, Tramp qlobalistlər tərəfindən "Rusiya iqtisadi çöküş astanasında olanda onu məğlub etmək" bəhanəsi ilə hiyləgər plana cəlb olunmur", - "Ruskiy injener" Telegram kanalının müəllifi Aleksey Vasilyev əlavə edib.

Avropalı ekspertlərin ümumi qənaəti belədir ki, Tramp sadəcə müharibəni Avropa və Ukraynanın hesabına qızışdırmaq və bu arada ABŞ silah texnikasını baha qiymətə Avropaya satmaq məqsədi güdür.

Rusiya Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyasının Beynəlxalq Siyasi Araşdırmalar İnstitutunun (IAMP) rəhbəri Vadim Kozyulin fikrincə, Trampın Ukraynanın Avropa İttifaqının dəstəyi ilə "bütün ərazisini öz ilkin sərhədlərinə qaytarmaq" qabiliyyəti ilə bağlı dediyi sözlər Avroatlantikaçılara və Kiyevə ünvanlanıb. "Bu ifadələr özlüyündə ABŞ üçün əvvəlki əhəmiyyətini xeyli itirib. Av EV rəhbəri ukraynalıları və avropalıları öz güclərinə inandırmaqda davam edir. Tramp bu bəyanatı ilə həm də Ukrayna böhranının davam etməsi üçün bütün məsuliyyəti və yükü Brüssel və Kiyevin üzərinə qoyur. Birləşmiş Ştatlar bundan sonra münaqişədə çox dolayı yolla- yalnız silah satışı və yalnız Avropa fondları ilə iştirak edəcək", - o qeyd edib.

Ekspertin fikrincə, Amerika liderinin geosiyasi prioriteti Asiya-Sakit okean regionudur. Əslində, Tramp sadəcə, Brüssel və Kiyevdə eşitmək istədiklərini dedi: o, onların "Moskvanı ələ keçirmək" qabiliyyətinə inandığını deyir. Bu vəziyyətdə o, Vaşinqtonu münaqişənin müşahidəçisi və "faydalısı" roluna verir. Eyni zamanda, düşünürəm ki, ABŞ prezidenti bu iddiaların absurdluğunu başa düşür".

Ümumiyyətlə, Ukrayna ərazisində davam edən NATO-Rusiya hərbi qarşıdurmasının dayandırılması üçün beynəlxalq aləmdə heç bir addım atılmır. ABŞ bu müharibədən yalnız pul qazanmaq və Rusiyanı zəiflətmək, Avropa İttifaqı Şərqə nüfuz etmək üçün çalışır. NATO-nun məqsəd və mənafeləri naminə qurban verilən Ukrayna onları o qədər də maraqlandırmır. Rusiya isə NATO Şərq sərhədlərindən və Ukraynadan çəkilməyənədək hərbi əməliyyatları dayandırmayacağını bəyan edir. Beləliklə, Ukraynada müharibənin tezliklə başa çatacağını gözləmək sadəlövhlük olardı.

**Elçin Bayramlı**

SON SƏHİFƏ

SƏS

25 sentyabr
2025-ci il

# Həkimdən TÖVSİYƏ: uşaqların peyvəndlənməsi vacibdir!





"Uşaqlarda peyvəndlənmənin əhəmiyyəti danılmaz dərəcədə böyükdür. Peyvəndlər uşaqların sağlam inkişafının təmin olunmasında, müxtəlif yoluxucu xəstəliklərdən qorunmasında ən təsirli vasitələrdən biridir. İlk növbədə qeyd etmək lazımdır ki, uşaqların immun sistemi tam formalaşmadığı üçün onlar bir çox xəstəliklərə qarşı həssas olurlar". Bu sözləri SİA-ya açıqlamasında həkim-pediatr Təranə Marufova deyib.

Onun sözlərinə görə, məhz peyvəndlər vasitəsilə bu zəif immun sistem gücləndirilir və uşaqlar həyati təhlükəsi ola biləcək xəstəliklərə qarşı qorunur: "Tarixi faktlar da bunu sübut edir. Əgər peyvənd proqramları tətbiq olunmasaydı, bu gün hələ də difteriya, qızılca, poliomielit, boğmaca kimi xəstəliklər geniş yayılmış olardı. Peyvəndlər yalnız bir uşağı yox, həm də bütövlükdə cəmiyyəti qoruyur. Çünki kollektiv immunitet deyilən bir anlayış mövcuddur: əgər cəmiyyətdə insanların böyük əksəriyyəti peyvənd olunursa, yoluxucu xəstəliklərin yayılması minimuma enir və peyvənd oluna bilməyən körpələr və ya immun sistemi zəif olan uşaqlar da dolayı yolla qorunmuş olur.

Digər tərəfdən, peyvəndlərin iqtisadi və sosial əhəmiyyətini də vurğulamaq vacibdir. Peyvənd olunmayan uşaqlar xəstələndikdə, bu həm ailəyə, həm də dövlət səhiyyə sisteminə əlavə maliyyə yükü yaradır. Halbuki, bir peyvəndin dəyəri xəstəliyin müalicəsi üçün lazım olacaq xərclərdən dəfələrlə ucuz başa gəlir. Əlavə olaraq, peyvəndlər uşaqların həyat keyfiyyətini yüksəldir. Sağlam böyüyən uşaq təhsildən geri qalmır, sosial həyata daha aktiv qoşulur və gələcəkdə sağlam fərd kimi cəmiyyətə fayda verə bilir. Bir uşaq həkimi olaraq valideynlərə tövsiyəm odur ki, peyvəndlənməyə laqeyd yanaşmasınlar. Rəsmi peyvənd təqviminə uyğun olaraq uşaqlarını vaxtında peyvənd etsinlər. Çünki peyvənd sadəcə bir iynə deyil, uşağın sağlam gələcəyinə qoyulan ən böyük investisiyadır".

*Ziya Hikmətoğlu*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Amerikalı pop ulduz bir gündə 15 milyon dollar qazandı...

Amerikalı pop ulduzu Teylor Sviftin "The Life of a Showgirl" adlı yeni albomunun çıxışı münasibətilə təşkil edilən kinonümayiş ilk 24 saatında 15 milyon dollar gəlir əldə edib. Bu layihənin ABŞ-də böyük kassalı hadisəyə çevriləcəyi gözlənilir. Müğənninin on ikinci studiya albomu 3 oktyabrda işıq üzü görəcək.



# "Saxta qəhrəmanların populyarlaşması gənclərin dəyərlərinə təhlükə yaradır"

## *Sosioloq şərh etdi*



"Sosial şəbəkələrdə "saxta qəhrəmanların" populyarlaşması müasir gəncliyin dəyərlərinə və davranışlarına dərin təsir göstərir. Bu hadisə, xüsusilə gənclərin dünyagörüşünün formalaşdığı dövrdə onların həyat tərzini və gələcək baxışlarını dəyişdirə bilir". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydın Xan Əbilov deyib. Onun sözlərinə görə, sosial şəbəkələrdə çox vaxt real nailiyyətlərdən daha çox görüntüyə əsaslanan obrazlar önə çıxır: "Məşhurluq və diqqət qazanmaq üçün göstərilən şişirdilmiş həyat tərzi gənclərin uğur anlayışını təhrif edir. Əsl elm, incəsənət, idman və ictimai fəaliyyətlə məşğul olan insanlar arxa planda qalır, özünü təqdimat bacarığı güclü olan şəxslər isə "nümunə" kimi görünməyə başlayır.

Bu vəziyyət gənclərin dəyərlər sistemində də dəyişikliklər yaradır. Zəhmət, savad, peşəkarlıq və əxlaq kimi əsaslı keyfiyyətlərdən çox, sürətli məşhurluq, maddi imkanların nümayişi və sosial şəbəkələrdə tanınmaq arzusu ön plana keçir. Belə tendensiya həm psixoloji təzyiq yaradır, həm də gəncləri qısa yolla uğura çatmaq illüziyasına sürükləyir. Bundan başqa, saxta qəhrəmanların təsiri gənclərin sosial davranışında da özünü göstərir. Daha çox izləyici toplamaq üçün şəxsi həyatlarını nümayiş etdirmək, təhlükəli və zərərli "trendlərə" qoşulmaq, riskli davranışlar sərgiləmək geniş yayılır. Bu isə onların sosial və psixoloji təhlükəsizliyi üçün ciddi riskdir. Nəticədə, belə populist fiqurların önə çıxması cəmiyyətin real qəhrəmanlarının kölgədə qalmasına gətirib çıxarır. Əslində isə inkişafı təmin edən həkimlər, müəllimlər, elm adamları, idmançılar, hərbçilər və digər fədakar insanlar gənclərə örnək olmalıdır. Əgər bu balans bərpa olunmasa, gənclər yanlış nümunələr əsasında formalaşacaq və bu, gələcəkdə həm sosial, həm də milli inkişaf üçün problem yarada bilər".

*Ziya Hikmətoğlu*

## ELAN

YAP Ağstafa rayon təşkilatı tərəfindən İbrahimov Bəxtiyar İbrahim oğluna (vəsiqə nömrəsi 200396), Bayramov İlqar Aydın oğluna (vəsiqə nömrəsi 038153) və Şabanov Rayət Məhəmməd oğluna (vəsiqə nömrəsi 840821) verilmiş partiya vəsiqələri itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**